Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır...

BİNƏQƏDİ

№04 (48) | 31 yanvar 2014 | İCTİMAİ-SİYASİ QƏZET | Qiyməti: 40 qəpik

Ümummilli liderin gənclər siyasəti uğurla davam etdirilir

səh. 2

Cənubi Qafqazın lider ölkəsi

Prezident İlham Əliyev Davosda keçirilən "Cənubi Qafqaz və Mərkəzi Asiya: qlobal iqtisadiyyata yol" mövzusunda qəbulda iştirak etmişdir. Qəbulda çıxış edən Prezident İlham Əliyev demişdir:

– Əvvəlcə Cənubi Qafqaz və Mərkəzi Asiyaya həsr edilmiş bu tədbirin təşkilatçılığına görə professor Şvaba minnətdarlığımı bildirirəm. Bizim region hazırda dünyanın diqqətini cəlb edir. Bu səhər təşkil edilmiş paneldə regional əməkdaşlıq mövzusu müzakirə olundu. Bundan əlavə, ötən ilin aprel ayında Bakıda təşkil olunmuş Davos Forumu da həmin mövzuya həsr edilmişdi. Həqiqətən, regionumuz dinamik inkişaf edir və burada iqtisadi əməkdaşlıq üçün böyük potensial vardır. Azərbaycan öz növbəsində əməkdaşlığın gücləndirilməsi, Cənubi Qafqaz və Mərkəzi Asiyanın inteqrasiyası üçün vacib rol oynayır. Deyə bilərəm ki, ölkələrimizi bir araya gətirmək istiqamətində ilk təşəbbüsü Azərbaycan göstərib. Bu da enerji siyasətimizin başlanğıcı ilə bağlıdır.

Biz geniş boru kəmərləri şəbəkəsi vasitəsilə Xəzər, Qara və Aralıq dənizlərini birləşdirməyə müvəffəq olduq. Bu gün Azərbaycan yalnız enerji resurslarının təchizatçısı deyil, həm də tranzit ölkədir. Mərkəzi Asiya dövlətləri öz təbii sərvətlərini bizim infrastruktur vasitəsilə nəql edir. Bu layihə həm istehsalçı, həm istehlakçı, həm də tranzit ölkələr üçün faydalı şərait yaradıb. Bu layihə tərəfimizdən icra edilən yeni bir layihənin başlanğıcı olub. Mən Türkiyəni və Avropanı əhatə edəcək boru kəməri, həmçinin Avropanın ən iri infrastrukturu hesab olunan "Şahdəniz-2" layihəsini nəzərdə tuturam. Ötən ilin dekabrında 25 milyard dollar dəyərində olan "XXI əsrin müqaviləsi" adlandırdığımız sənədi imzaladıq. Bu nailiyyət göstərir ki, qarşılıqlı dəstək və marağa əsaslanan geniş və səmimi əməkdaşlıq olduğu halda uğurlu nəticələr əldə edilir.

Bu gün biz nəqliyyat şəbəkəsinin yaradılması istiqamətində Mərkəzi Asiya dövlətləri ilə birgə çalışırıq. Biz, eyni zamanda, Mərkəzi Asiyanı Azərbaycan vasitəsilə Avropaya birləşdirəcək mühüm dəmir yolu layihəsi üzərində çalışırıq. Əslində bu, Çindən Böyük Britaniyaya qədər uzanan yeni "İpək Yolu"dur və ümid edirəm ki, artıq gələn il istifadəyə veriləcəkdir. Bunların hamısı regional əməkdaşlığın müsbət əlamətləridir.

Təbii ki, siyasət sahəsi də mühüm rol oynayır. Region dövlətləri vaxtilə – 22 il əvvəl vahid bir ölkənin tərkib hissəsi olmuşdur. Bizim tarixən əlaqələrimiz vardır, ancaq əminəm ki, hər bir ölkə müstəqilliyinin bəhrəsini görür. Biz təkcə azadlığa qovuşmamışıq. Biz sistemi dəyişmişik. Ölkələrimizin nailiyyətləri bazar iqtisadiyyatının və müstəqil siyasi inkişafın üstünlüklərini aydın nümayiş etdirir. Məsələn, 22 il əvvəl özəl sektorun ümumi daxili məhsulumuzda payı sıfır faiz idisə, bu gün bu göstərici 85 faizə bərabərdir.

Siyasi və iqtisadi transformasiya və sərmayələrin cəlb edilməsi istiqamətində aparılan siyasət uğurlu olub. Bu gün artıq Azərbaycan xarici ölkələrə sərmayə qoyur. Bunların hamısı olduqca qısa zamanda baş verib. Bu gün bizim regionumuz nəhəng potensiala, dinamik inkişafa və böyük insan kapitalına malik məkan hesab olunur. Bu məsələdə böyük inkişaf potensialı vardır və bizim göstəricilər dünya üzrə orta göstəricilərdən üstündür.

Azərbaycana gəldikdə, biz bu gün diqqətimizi iqtisadiyyatımızın şaxələndirilməsinə yönəldirik. Ötən il qeyri-neft sektorunda ümumi daxili məhsulun artımı 10 faizə qədər olub və ümid edirəm ki, növbəti 10 il ərzində eyni inkişaf tempi təmin ediləcəkdir.

Onu da qeyd etməliyəm ki, Azərbaycan sürətlə inkişaf edən iqtisadiyyata malikdir. Son 10 ildə iqtisadiyyatımız 3 dəfə artıb və iqtisadiyyatın rəqabət qabiliyyətliliyinə görə Davos İqtisadi Forumu Azərbaycanı dünyada 39–cu yerə layiq görüb. Bu, əsasən islahatların və təbii sərvətlərimizin düzgün istifadə edilməsi, insan kapitalına və infrastruktura yenidən sərmayələrin qoyulması və biznes imkanlarının yaxşılaşdırılması sayəsində mümkün olub.

Bir daha regionumuza göstərilən maraq və dəstəyə görə professor Şvaba və Davos İqtisadi Forumuna təşəkkürümü bildirərəm. Bu, mənim Davosa səkkizinci səfərimdir və bu, Azərbaycanın təbliği və təmasların qurulmasında çox faydalı olub. Ötən illər ərzində qurduğumuz təmaslar bu gün kosmik sənayenin, informasiya-kommunikasiya texnologiyalarının və indiyədək heç ağlımıza gətirmədiyimiz sahələrin inkişafına xidmət edib.

Bir daha Sizə təşəkkür edirəm və bu mövzunun bundan sonra da diqqət mərkəzində olacağına ümidvaram.

Azərbaycanın özünəməxsus milli inkişaf modeli var

Davos Forumu ölkəmizin beynəlxalq iqtisadi nüfuzunun daha da artdığını təsdiqlədi

Azərbaycanın zəngin enerji resursları həm ölkəmizin iqtisadi potensialını gücləndirib, həm də regional əməkdaşlıqda çox mühüm rol oynayıb. Tikilib istifadəyə verilmiş kəmərlər Azərbaycan neftini dünya və Avropa bazarlarına çıxarır. Respublikamız qlobal miqyasda artıq qaz ixrac edən ölkəyə çevrilib. Azərbaycan enerji problemlərini uğurla həll edib. Regional əməkdaşlıq müstəvisində həm nəqliyyat, həm də enerji sektorundakı təşəbbüslərin artırılması daha da böyük uğurlara gətirib çıxaracaq.

Azərbaycan regionda hansısa ölkədən enerji asılılığı olmayan yeganə respublikadır. Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri dünya miqyaslı layihələr olmaqla Azərbaycanın enerji təhlükəsizliyinə geniş imkanlar açır. Bu layihələr, eyni zamanda, respublikamızın müstəqilliyini daha da möhkəmləndirir, regionda müstəqil siyasət aparmasını təmin edir. Azərbaycan dünyaya qaz nəql edən ölkə kimi də tanınmaqdadır. Beş il müddətində Avropa İttifaqı ilə aparılmış danışıqlar cari ilin iyununda Avropaya qaz nəqli marşrutunun müəyyən edilməsi, həmçinin ötən ilin sentyabr ayında "Şahdəniz" konsorsiumu və Avropanın qaz alıcıları arasında sazişin imzalanması ilə nəticələnib. İlkin mərhələdə Azərbaycan qazının daşınması "Şahdəniz-2" layihəsinin hasilatı hesabına olacaq. Təbii qazın nəqli ilk mərhələdə 15-16 milyard kubmetrlə başlanacaq. 2019-cu ildə Avropaya 10 milyard kubmetr, 2018-ci ildə isə Türkiyəyə 6 milyard kubmetr qaz nəql olunacaq. 2025-ci iləDək Azərbaycan qaz ixracatını 40-50 milyard kubmetrə çatdıracaq.

Son 10 ildə iqtisadiyyatımız üç dəfə artıb və rəqabət qabiliyyətliliyinə görə Davos İqtisadi Forumu Azərbaycanı dünyada 39-cu yerə layiq görüb. Bu, əsasən, islahatların aparılması və təbii sərvətlərimizin düzgün istifadə edilməsi, insan kapitalına və infrastruktura yenidən sərmayələrin qoyulması və biznes imkanlarının yaxşılaşdırılması sayəsində mümkün olub. Azərbaycanın artan iqtisadi qüdrəti ölkəmizə olan marağı artırmaqla yanaşı, beynəlxalq və regional əməkdaşlıq sahəsində bundan sonra da respublikamızın aparıcı rola malik olacağını deməyə əsas yaradır.

Ölkə başçısı İlham Əliyevin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunda iştirakı da əlamətdar hadisələrlə yadda qalmışdır. Dünya İqtisadi Forumunda müasir dövrün siyasi-iqtisadi problemləri, qlobal inkişafın doğurduğu əsas çətinliklərin həlli, enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə predmeti olmuşdur. Forum iştirakçıları Azərbaycanda gedən iqtisadi yüksəlişə diqqət çəkmiş və ölkəmizlə əməkdaşlıqda maraqlı olduqlarını bildirmişlər. Forum ölkəmizin beynəlxalq iqtisadi nüfuzunun daha da artmasına və müxtəlif sahələrdə yeni tərəfdaşlıq imkanlarının yaranmasına səbəb olmuşdur.

Forumun keçirilməsində əsas məqsəd dövlət və hökumət başçılarını, beynəlxalq təşkilatları, elm adamlarını, nüfuzlu siyasətçiləri, iqtisadçıları, biznesmenləri birliyə cəlb etmək, onların arasında əlaqə yaratmaq və dünya üzrə iqtisadi problemlərin birgə aradan qaldırılmasına nail olmaq, yeni beynəlxalq layihələrin həyata keçirilməsini müzakirə və təşkil etməkdir. Forumun iqtisadi və siyasi əhəmiyyəti bu gün daha da artıb. Qlobal iqtisadi böhranın, milyonlarla insanın yaşayışına, ayrı-ayrı dövlətlərin iqtisadiyyatına təsir edən siyasi münaqişələrin davam etdiyi, ərzaq çatışmazlığı probleminin mövcud olduğu indiki dövrdə siyasi liderləri, iş adamlarını, vətəndaş cəmiyyəti qurumlarının rəhbərlərini bir araya toplayan Davos Forumu bir çox məsələlərin müzakirəsinə və vacib qərarların qəbuluna əlverişli mühit yaradır.

Davosa işgüzar səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizlə əməkdaşlığa böyük maraq göstərən bir sıra dövlət rəsmiləri və nüfuzlu şirkətlərin təmsilçiləri ilə görüşmüşdür. Dövlətimizin başçısı İsrailin Prezidenti Şimon Peres və Baş naziri Benyamin Netanyahu ilə görüşlərində ikitərəfli münasibətlərin müxtəlif sahələri, o cümlədən iqtisadi, hərbi əməkdaşlıq və digər məsələlərlə bağlı fikir mübadiləsi aparılmışdır.

Ölkə başçısının Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti, İsveçrənin "Holcim" şirkətinin sədri və baş icraçı direktoru Bernar Fontana, Fransanın "Airbus Group International" şirkətinin baş icraçı direktoru Jan Pyer Talamoni, İsveçrənin "Swiss Re" şirkətinin beynəlxalq əlaqələr üzrə sədri Martin Parker, Danimarkanın "Philips" şirkətinin vitse-prezidenti və satış üzrə rəhbəri Ronald de Jong ilə görüşlərində də adı çəkilən qurumların Azərbaycanla iqtisadi əlaqələrinin perspektivləri müzakirə olunmuş, yeni əməkdaşlıq təklifləri irəli sürülmüşdür.

Prezident İlham Əliyev Davosda keçirilən "Cənubi Qafqaz və Mərkəzi Asiya: qlobal iqtisadiyyata yol" mövzusunda qəbulda iştirakı zamanı demişdir: "Bizim region hazırda dünyanın diqqətini cəlb edir. Bu səhər təşkil edilmiş paneldə regional əməkdaşlıq mövzusu müzakirə olundu. Bundan əlavə, ötən ilin aprel ayında Bakıda təşkil olunmuş Davos Forumu da həmin mövzuya həsr edilmişdi. Həqiqətən, regionumuz dinamik inkişaf edir və burada iqtisadi əməkdaşlıq üçün böyük potensial var. Azərbaycan öz növbəsində əməkdaşlığın gücləndirilməsi, Cənubi Qafqaz və Mərkəzi Asiyanın inteqrasiyası üçün vacib rol oynayır. Deyə bilərəm ki, ölkələrimizi bir araya gətirmək istiqamətində ilk təşəbbüsü Azərbaycan göstərib. Bu da enerji siyasətimizin başlanğıcı ilə bağlıdır".

İqtisadi sahədə keçid dövrünü başa vuran Azərbaycan bu gün dünyada özünəməxsus milli inkişaf modeli ilə tanınır. Bu modelin üstün cəhətləri ilə bağlı beynəlxalq maliyyə qurumlarında geniş müzakirələr, təhlillər aparılır. Respublikamız son illərdə bütün investisiya layihələrini daxili resursları hesabına reallaşdırmaqla yanaşı, regionda sərmayədar dövlət kimi çıxış edir. Azərbaycanın bu gün Avropanın enerji təhlükəsizliyi sisteminin əsas təminatçısı qismində çıxış etməsi danılmaz faktdır.

Dünya İqtisadi Forumu çərçivəsində "Avrasiya – yeni sərhədlər" mövzusunda sessiyada iştirak edən Prezident İlham Əliyev bildirmişdir: "Təbii ki, Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri arasında iqtisadi əməkdaşlıq da artmaqdadır. Bu ölkələrdə ümumi daxili məhsulun artımı böyükdür və bu göstərici dünya üzrə orta göstəricilərdən daha çoxdur, həmçinin artım potensialı da böyükdür. Düşünürəm ki, 22 il əvvəl Sovet İttifaqı adlanan böyük bir ailənin üzvləri hesab olunan ölkələr arasında əməkdaşlığı gücləndirmək üçün siyasi iradə mövcuddur. Bu gün bu ölkələr müstəqildir və hər bir dövlət özü üçün həm siyasi, həm də iqtisadi inkişaf yolu müəyyən edib, iqtisadi potensialdan qaynaqlanan sosial proqramlar həyata keçirir. Ancaq regional əməkdaşlıq əlavə fürsətlər də yaradır, daha münbit biznes və sərmayə mühitinin yaradılmasını təşviq edir.

Biz regionumuzda, həmçinin Mərkəzi Asiyada cərəyan edən hadisələri yaxından izləyirik. Xalqlarımız arasındakı ənənəvi dostluq əlaqələri regional əməkdaşlıq formatının yaradılmasına xidmət edir. Azərbaycana gəldikdə, biz bu məsələlər üzrə bundan sonra da fəal işləməyə davam edəcəyik və gələcəkdə yeni əməkdaşlıq sahələrinin müəyyən olunması üçün bütün zəruri tədbirləri görəcəyik".

Azərbaycanın iqtisadi inkişaf dinamikası əvvəllər yalnız ölkənin təbii resurslarına əsaslanırdısa, hazırda iqtisadi şaxələndirmənin nəticəsi olaraq, qeyri-neft sektoru üstün artım tempinə malikdir. Bəzən ölkəmiz dünya iqtisadiyyatında yeni təmayülləri hətta Avropa ölkələrini qabaqlamaqla mənimsəyir. Azərbaycan resurslarla zəngin olan ölkələr sırasında enerji səmərəliliyi sahəsində ən yüksək nailiyyət qazanmış və Şərqi Avropada "yaşıl iqtisadiyyat"ın tədqiqini aparan ilk ölkə olmuşdur.

Prezident İlham Əliyev Azərbaycanın müasir dövlətə çevrilməsini və tam müstəqil siyasət yürütməsini milli ideyanın başlıca hədəfi kimi müəyyənləşdirmişdir. İqtisadi məsələlərə xüsusi diqqətin ayrılması da əsaslı yanaşma olaraq dövlət müstəqilliyinin iqtisadi bazisini möhkəmlətmək, cəmiyyətin davamlı inkişafı üçün zəmin hazırlamaq məqsədindən irəli gəlmişdir. Ötən illərdə respublika iqtisadiyyatında islahatlar kursu inamla davam etdirilmiş, xüsusən də regional inkişafa, qeyri-neft sektorunun yüksəlişinə, infrastrukturun müasirləşdirilməsinə, neft amilindən asılılığın azaldılmasına, sahibkarlığın inkişafına və güclü insan kapitalının formalaşdırılmasına xidmət edən mühüm addımlar atılmışdır.

• AKTUAL 3



Çalışmaq lazımdır ki, əhali görülən işlərdən razı qalsın

• HESABAT 4



Biləcərinin ötənilki uğurları...

• CƏMİYYƏT 5

Sosial-iqtisadi sahədə ciddi nailiyyətlər əldə olunub

• GÜNDƏM 6



2 Fevral – Gənclər Günüdür

aktual

→ Heydər Əliyev Fondu

Daha bir humanist addım

Pakistanın Xayber Paxtunxva əyalətinin Peşəvar şəhərində fəaliyyət göstərən Xayber Göz Fondunun klinikasında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın dəstəyi ilə inşa edilmiş kişi və qadınlar üçün gözləmə otaqlarının açılış mərasimi keçirilmişdir.

Mərasimdə Xayber Göz Fondunun idarə heyətinin sədri Hacı Məhəmməd Həlim Xan, Pakistan Senatının yayım və informasiya komitəsinin sədri, İslam dövlətləri ticarət və sənaye maddi yardım göstərilmiş, həmçinin 2012-2013-cü illərdə Qurban bayramında və Ramazan ayında əyalətin müxtəlif bölgələrində humanitar layihələr həyata keçirilmişdir.

Tədbirdə çıxış edən Xayber Göz Fondunun idarə heyətinin sədri Hacı Məhəmməd Həlim Can Heydər Əliyev Fondunun prezidentinə dərin minnətdarlığını bildirərək demişdir ki, Mehriban xanımın əyalətin imkansız adamlarına göstərdiyi bu diqqət onun humanistliyinin, islam dəyərlərinə sadiqliyinin, həmçinin xalqımıza məhəbbətinin göstəricisidir.

palatalısının vitse-prezidenti senator Hacı Qulam Əli, Xayber Paxtunxva əyaləti parlamentinin deputatları, ziyalılar, ictimai-siyasi xadimlər, media nümayəndələri iştirak etmişlər.

Azərbaycanın Pakistandakı səfiri Daşqın Şikarov Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın Azərbaycanda və xarici ölkələrdə həyata keçirdiyi uğurlu layihələr barədə ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, Heydər Əliyev Fondu tərəfindən Pakistanda həyata keçirilən silsilə humanitar yardımlar proqramı çərçivəsində Xayber Paxtunxva əyalətində hepatit B virusuna qarşı peyvənd kampaniyası, açıq ürək əməliyyatları aparılmış, əyalətin klinikalarında serebral iflicin müayinəsi, Pakistan-Əfqanıstan sərhədi boyu pulsuz qanköçürmə təşkil edilmiş, göz klinikasının tikintisi üçün

Daha sonra o, başçılıq etdiyi fondun fəaliyyəti barədə məlumat vermişdir. Bildirilmişdir ki, müasir avadanlıqla təchiz olunmuş klinikada Pakistanın aparıcı oftalmoloqları çalışır və burada minlərlə imkansız insana pulsuz tibbi xidmət göstərilir.

Pakistan Senatının yayım və informasiya komitəsinin sədri, İslam dövlətlərinin ticarət və sənaye palatasının vitse-prezidenti senator Hacı Qulam Əli Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələri yüksək qiymətləndirərək bildirmişdir ki, Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə Pakistanın bütün əyalətlərində həyata keçirilən layihələr iki qardaş xalq arasındakı münasibətləri daha da möhkəmləndirmiş, pakistanlıların yaddaşında silinməz iz buraxmışdır.

Mədəni irsimizin təbliği

Azərbaycanın Yaponiyadakı səfirliyinin və "İRS-Isan" jurnalının redaksiya heyətinin birgə təşkilatçılığı ilə "İrs" jurnalının yapon dilində növbəti nömrəsi çapdan çıxıb.

Jurnalda Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın Qarabağ muğam məktəbi haqqında məqaləsi oxuculara təqdim olunur.

Məqalədə muğam sənəti, Azərbaycan muğam məktəbi və onun görkəmli nümayəndələri haqqında geniş məlumat verilir, muğam sənətinin mühüm tərkib hissəsi olan Qarabağ muğam məktəbinin özünəməxsus üslubu və ənənələrindən bəhs olunur.

Jurnalın nəşrində məqsəd yapon xalqının Azərbaycanın zəngin tarixi-mədəni irsi, incəsənəti, ədəbiyyatı, mətbəxi, turizm imkanları və inkişaf perspektivləri haqda daha ətraflı məlumatlandırılmasıdır.

BİNƏQƏDİ

Təsisçi:
Binəqədi Rayon İcra Hakimiyyəti

Baş redaktor:
Rüfət Mərdanov

Ünvan:
AZ1130, Bakı, Binəqədi rayonu, Nizami Nərimanov küçəsi, 75

Tel.: **(012) 563 57 28**

E-mail: **bineqedi-qazet@mail.ru**

Qeydiyyat nömrəsi: **55** | VÖEN: **1002874841**

"Binəqədi" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Tiraj: **2000** | Qiyməti: **40 qəpik**

Ümummilli liderin gənclər siyasəti uğurla davam etdirilir

ESMİRA ORUCOVA

Hər bir ölkənin uğurlu inkişafı həm də gənclər siyasətinin düzgün qurulmasından, intellektual səviyyəli, vətənpərvər gəncliyin yetişdirilməsindən, onlara ictimai həyatın bütün sahələrində layiqli iştirak imkanlarının yaradılmasından asılıdır. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin son 10 ildə uğurla davam etdirilməsi ölkə gənclərinin mütəşəkkil qüvvə kimi formalaşmasına, ictimai-siyasi, sosial-mədəni və digər sahələrdə fəal iştirakına real imkanlar yaratmışdır.

Gənclər siyasətində keyfiyyətcə yeni mərhələ

Respublikada fəaliyyət göstərən gənclər təşkilatları, ictimai birliklər ölkədə vətəndaş cəmiyyətinin qurulması istiqamətində öz töhfələrini verirlər. Gənc nəslin mənəvi-ideoloji tərbiyəsinə, fiziki sağlamlıqlarının möhkəmləndirilməsinə xüsusi qayğı ilə yanaşılır. Bütün bunların nəticəsində Azərbaycanın əldə etdiyi nailiyyətlərdə gənclərin də rolu artır.

Müstəqillik illərində Azərbaycanda gənclər siyasətinin uğurla reallaşdırılması, bu sahədə özünü göstərən problemlərin həlli ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ötən əsrin 90-cı illərinin əvvəlində ölkədəki xaos, özbaşınalıq, hərc-mərclik respublikada bütün sahələrə mənfi təsir göstərmiş, o cümlədən gəncləri ciddi problemlərlə üzləşdirmişdi. Məhz dahi şəxsiyyət Heydər Əliyevin 1993-cü ilin iyununda yenidən hakimiyyətə qayıdışı ölkədə yeni ab-hava yaratmış, gənclərin problemlərinin həllinə yeni imkanlar açmışdır. Ulu öndərin müvafiq fərmanı ilə 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması gənclərin öz potensiallarını reallaşdırmasına, habelə ölkənin gələcək inkişafında iştirakı və məsuliyyətinin yüksəldilməsinə güclü təkan olmuşdur.

1996-cı ildən başlayaraq keçirilən gənclər forumları bu fəal sosial zümrənin nümayəndələrinin dövlət və hökumət nümayəndələri ilə açıq ünsiyyətini asanlaşdırmış, problemlərinin həllinə imkan vermişdir. Azərbaycan gənclərini öz ətrafında birləşdirən bu forumlar ölkədə gənclər hərəkatını da genişləndirmişdir. Ulu öndərin 1997-ci il fevralın 2-də imzaladığı fərmanla ilk forumun keçirildiyi 2 fevral Azərbaycanda "Gənclər Günü" elan edilmişdir. Məhz həmin vaxtdan etibarən bu tarix ölkəmizdə dövlət səviyyəsində geniş qeyd olunur.

Ümummilli lider sonrakı mərhələdə gənclər sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsi məqsədilə zəruri qanunvericilik bazasının formalaşdırılmasını da təmin etmişdir. 1996-2002-ci illərdə qəbul olunmuş "Bədən tərbiyəsi və idman haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Dövlət gənclər siyasəti haqqında" qanunlar, imzalanmış fərman və sərəncamlar, habelə "Gənc ailə" proqramı, "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında", "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı", "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu" Dövlət Proqramı bu baxımdan xüsusi vurğulanmalıdır. Bu qanunlar, fərman, sərəncam və dövlət proqramları gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə, sosial problemlərinin həllinə, faydalı məşğulluğunun təmin olunmasına, habelə idmanın kütləviləşməsinə əsaslı təsir göstərmişdir.

Gənclərə malik olduqları qabiliyyət və intellektual imkanlar müqabilində geniş meydan verməyin tərəfdarı kimi çıxış edən möhtərəm Prezident İlham Əliyev bu təbəqəni daim diqqət mərkəzində saxlayır. Ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərin imkanlarından daha dolğun istifadə olunması, bunun üçün əlverişli şəraitin yaradılması gənclər siyasətinin əsasını təşkil edir. Gənc nəslin fiziki, sosial və mənəvi inkişafını təmin edən fəaliyyət sahələrinin yaradılması, onların bəşəri ideyalar əsasında formalaşması və digər məsələlər dövlətimizin qarşısında duran vacib vəzifələrdəndir.

Gənclər siyasəti Binəqədidə...

Paytaxtın ən böyük rayonlarından olan Binəqədidə əhalinin əsas hissəsini gənclər təşkil edir. Onlar rayonun sosial-iqtisadi, mədəni həyatında fəallıq göstərirlər. Binəqədili gənclərin müxtəlif sahələrdə önə çəkilməsi, onların problemlərinin həlli rayonun yeni rəhbərliyinin də diqqət mərkəzindədir. Gənclərlə mütəmadi görüşlərin təşkili, onların üzləşdikləri problemlərin aradan qaldırılması Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun fəaliyyətində mühüm yer tutur.

Rayonda gəncləri maraqlandıran məsələlərlə bağlı müxtəlif konfrans və "dəyirmi masa"lar təşkil olunur, onlara vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik prinsiplərinin mahiyyəti aşılanır. Bunun nəticəsidir ki, Binəqədi gənclərinin əksəriyyəti intellektual və vətənpərvər ruhda yetişir, dövlətimizin iqtisadi və siyasi qüdrətinin inkişafına töhfələrini verirlər. Rayon gənclərinin yüksək intellektual səviyyəsini onların ali məktəblərə qəbul göstəriciləri də bir daha sübut edir. 2013-cü ildə də rayonun orta məktəblərinin yüksək bal toplayan məzunlarının sayı çoxluq təşkil etmişdir. Ötən il müxtəlif ali məktəblərə daxil olan həmin gəncləri rayonun icra başçısı Xaləddin İsgəndərov qəbul etmiş, səmimi təbriklərini çatdırmış, tövsiyələrini vermişdir.

Binəqədili gənclər təkcə yaşadıqları rayonun deyil, bütövlükdə respublikanın sosial-iqtisadi, mədəni həyatında fəal iştirak edirlər. 2013-cü ilin prezident seçkiləri Binəqədi gənclərinin fəallığını bir daha nümayiş etdirmişdir. Rayonun gənc fəalları seçki ərəfəsində aparılan təbliğat işlərinə layiqli töhfələrini vermişlər.

Məqsəd gənclərin fiziki və mənəvi kamilliyini təmin etməkdir

Binəqədi Rayon Gənclər və İdman İdarəsinin rəisi Qüdsi Bayramov qəzetimizə açıqlamasında ölkədə həyata keçirilən gənclər siyasətinin uğurlarından, bu sahədə görülmüş işlər və qarşıda duran vəzifələrdən söz açmışdır. Onun sözlərinə görə, intellektual səviyyəli, kreativ düşüncəli və vətənpərvər gənclərin yetişdirilməsi, onların dövlət idarəçiliyində irəli çəkilməsi hakimiyyətin yürütdüyü gənclər siyasətinin əsasını təşkil edir: "Azərbaycan Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi gənclər siyasəti ölkə gənclərinin cəmiyyət həyatında layiqli yerini təmin etmişdir. Hazırda gənclər müxtəlif dövlət idarələrində rəhbər vəzifələrə təyin edilir, onların öz potesiallarını reallaşdırmalarına lazımi imkanlar yaradılır. Bu, əlbəttə ki, Azərbaycan gəncliyinə göstərilən yüksək etimaddır. Gənclərin elmi, intellektual və yaradıcı potensialının inkişaf etdirilməsinə dəstək verilməsi, onların təşəbbüslərinin reallaşdırılması istiqamətində aparılan ardıcıl dövlət siyasəti Binəqədi rayon gəncləri tərəfindən də yüksək qiymətləndirilir.

Rayon icra hakimiyyətinin başçısı Xaləddin İsgəndərov gənclərin sosial problemləri ilə tez-tez maraqlanır, keçirdiyi bütün görüşlərdə onların böyük qüvvə olduğunu xüsusi vurğulayır. Hazırda rayon rəhbərliyinin dəstəyi ilə 7-ci mikrorayonda inşa edilən "Gənclər evi"nin mart-aprel aylarında istifadəyə verilməsi planlaşdırılır".

Rayon gənclərinin ictimai fəallığının artırılması zərurətindən söz açan Q.Bayramov bu məqsədlə müntəzəm olaraq tədbirlərin təşkil edildiyini diqqətə çatdırmışdır. O bildirmişdir ki, gənclərin idarəetmə sahəsində biliklərinin artırılması əsas hədəflərdən biridir: "Peşəkar idarəetmə", "Peşəkar hədəfləmə və effektiv göstəricilərin tərtibi" mövzularında təşkil olunan tədbirlər Binəqədi gənclərinin idarəetmə təcrübəsi qazanmalarına imkan yaradır. Biz rayon gənclərinin düzgün karyera seçiminə də biganə qalmırıq. Peşəkar şəbəkələşmənin istiqamətləndirilməsi, əmək bazarında tələblə təklifin uzlaşdırılması, istək və bacarığın düzgün dəyərləndirilməsi ilə bağlı gənclərə lazımi tövsiyələr veririk.

Gənclər arasında sağlam həyat tərzinin təbliği və təşviqi də mühüm istiqamətlərdəndir. Narkomanlıq, QİÇS və digər sosial bəlaların geniş yayılmaması, profilaktikası məqsədilə gənclər arasında maarifləndirmə işləri aparılır. "Sağlam ailə sağlam gələcəyin təminatıdır", "Sağlam gənclik - 10 il" mövzularında keçirdiyimiz tədbirlərdə gənclərə gələcək həyatın qurulması yönümündə lazımi tövsiyə və məsləhətlər verilmişdir".

Q.Bayramov həmçinin vurğulamışdır ki, gənclərin vətənpərvərlik tərbiyəsi işinin düzgün qurulması da prioritet istiqamətlərdən biridir. Onun fikrincə, ölkəmizin müharibə şəraitində yaşaması nəzərə alınaraq hərbi-vətənpərvərlik təbliğatına xüsusi diqqət göstərilməlidir: "Vətən sevgisi, torpağa bağlılıq, milli atributlarımıza hörmət gənclərin müqəddəs borcu olmalıdır. Bununla bağlı gənclər və idman idarələrinin də üzərinə böyük məsuliyyət düşür. Biz bu sahədə də əlimizdən gələni etməyə çalışırıq. Bu baxımdan, Qarabağ müharibəsində şəhidlik zirvəsinə yüksəlmiş igidlərimizin uyuduğu Şəhidlər xiyabanına ziyarətlərin təşkili, veteranlarla görüşlərin keçirilməsi gənclərin vətənpərvər ruhda yetişməsində əvəzsiz rol oynayır. Rayonun orta məktəblərində milli qəhrəmanların şəkillərinin yer aldığı stendlərin təşkili, vətənpərvərlik mövzusunda inşa, şeir və rəsm müsabiqələrinin keçirilməsi ənənə halını almışdır".

İdarə rəisi gənclərin fiziki sağlamlığının qorunması sahəsində həyata keçirilən tədbirlər barədə də ətraflı məlumat vermişdir: "İdmanın inkişafı ölkəmizdə dövlət siyasətinin əsas prioritetlərindəndir. Hazırda ölkəmizin əksər bölgələrində müasir standartlara cavab verən Olimpiya idman kompleksləri fəaliyyət göstərir. Həyata keçirilən tədbirlər yeniyetmə və gənclərin idmana marağını gücləndirir və bunu Binəqədi rayonun timsalında da aydın görmək mümkündür. Ötən il Xocəsən qəsəbəsində stadion istifadəyə verilmişdir. Hazırda 7-ci mikrorayonda daha bir stadion inşa edilir. Rayonun bir sıra abad məhəllələrində insanların idmanla məşğul olması üçün müvafiq avadanlıqlar quraşdırılmışdır. Rayon ərazisində, həmçinin, Bakı Tennis Akademiyası, "Bakı" futbol klubunun təlim-məşq bazası yerləşir. Gənclər həmin qurğularda idmanla müntəzəm şəkildə məşğul olurlar. Rayonun orta məktəblərinin şagirdləri ixtisaslaşdırılmış uşaq-gənclər idman məktəblərində asudə vaxtlarını səmərəli keçirirlər. Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Gənclər və İdman Nazirliyinin layihəsi çərçivəsində rayonda yerləşən "Vətən" futbol məktəbinin nəzdində "Real" (Madrid) futbol klubunun sosial məktəbi açılmışdır. Bütün bu tədbirlərdə əsas məqsəd rayon gənclərinin fiziki və mənəvi kamilliyini təmin etməkdir".

Çalışmaq lazımdır ki, əhali görülən işlərdən razı qalsın

M.Ə.Rəsulzadə qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin hesabatı

MƏHƏBBƏT ORUCOV

Yanvarın 27-də M.Ə. Rəsulzadə qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin 2013-cü ilin yekunları ilə bağlı hesabat yığıncağı keçirilib. İclasda Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, RİH başçısı Aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Ramiz Göyüşov, digər şöbə müdirləri, hüquq-mühafizə orqanlarının və qəsəbə ictimaiyyətinin nümayəndələri və s. iştirak ediblər.

Yığıncağı giriş sözü ilə acan Binəqədi RİH-in başçısı Xaləddin İsgəndərov bildirib ki, 2013-cü il rayonda bütün sahələr üzrə böyük irəliləyişə nail olunub: "Ötən il Binəqədi rayonunda da geniş miqyaslı abadlıq işləri həyata keçirilib. Qəbul edilmiş Dövlət Proqramına uyğun olaraq, rayonda abad məhəllələr yaradılıb, parklar və xiyabanlar salınıb. Eyni zamanda, təhsil müəssisələrinin əksəriyyətində təmir işləri aparılıb, küçə və yaşayış binalarında yenidənqurma işləri həyata keçirilib. Məhəllədaxili yollar asfaltlanıb, əhalinin qaz ,su, işıq və istilik təminatı xeyli yaxşılaşıb və bu istiqamətdə işlər davam edir".

İcra başçısı qeyd edib ki, bu gün rayonda hər bir məmurun yaxşı işləməsi üçün lazımi şərait yaradılıb: "Biz çalışmalıyıq ki, əhali gördüyümüz işlərdən razı qalsın. Bu günə qədər həyata keçirilən abadlıq-quruculuq işləri ilə kifayətlənməməliyik. Rayonda görüləsi işlər çoxdur. Əl-ələ verib problemləri aradan qaldırmalıyıq. Vətəndaşların müraciətlərinə diqqətlə yanaşılmalıdır. Ötən müddət ərzində rayon icra hakimiyyətinə müraciət edənlərin sayı artıb. Bu, əhalinin bizə olan inamından irəli gəlir. İnsanlarla sıx şəkildə işləmək lazımdır. 2013-cü ilin ən önəmli hadisələrindən biri Azərbaycan xalqının İlham Əliyevi yenidən ölkə başçısı seçməsidir. Qeyd edim ki, binəqədililər bu seçkilərdə yüksək fəallıq göstərib və düzgün seçim ediblər".

Sonra söz Binəqədi Rayon İcra Hakimiyyəti başçısının M.Ə.Rəsulzadə qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Mübariz Məmmədova verilib.

M.Məmmədov bildirib ki, qəsəbənin ərazisi 12 kvadrat-kilometr, əhalisi isə 51 min 200 nəfərdir. Qəsəbə ərazisində icra hakimiyyəti, polis idarəsi, prokurorluq, məhkəmə, Dövlət Miqrasiya Xidməti və bir sıra dövlət idarələri, 63 sənaye, nəqliyyat, tikinti müəssisəsi, ictimai təşkilatlar yerləşir.

2013-cü ildə icra nümayəndəliyinin fəaliyyətindən, qəsəbənin sosial-iqtisadi inkişafından, sakinlərin təklif və tələblərini nəzərə alaraq mövcud sosial problemlərin icrasından danışan M.Məmmədov deyib: "Cənab Prezident İlham Əliyev tərəfindən imzalanmış "Azərbaycan respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında", "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" kimi tarixi əhəmiyyətə malik sənədlər fəaliyyətimizdə istiqamətverici baza rolunu oynayıb. Respublikanın bütün bölgələrində olduğu kimi, ötən müddət ərzində Binəqədi rayonunda da geniş abadlıq-quruculuq işləri həyata keçirilib. Belə ki, 2012-ci ilin may ayından başlayaraq rayonun bütün yaşayış məntəqələrində olduğu kimi, Rəsulzadə qəsəbəsində də irimiqyaslı layihələr icra olunmaqdadır. 2013-cü ildə ölkə başçısının tapşırığına əsasən Binəqədi rayonunda həyata keçirilən ən uğurlu layihələrdən biri Heydər Əliyev parkının ən müasir üslubda landşaft və təkrarsız memarlıq elementləri tətbiq edilməklə yenidən qurulmasıdır. Parkda musiqili fəvvarə və müxtəlif uşaq əyləncə elementləri də quraşdırılıb. Həmin ərazidə yerləşən Binəqədi Rayon İcra Hakimiyyətinin və YAP Binəqədi rayon təşkilatının yeni inzibati binaları istifadəyə verilib. Sevindirici haldır ki, hər üç obyektin açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak edib.

Ötən il Dövlət Proqramı çərçivəsində qəsəbə ərazisində yerləşən 6 saylı Birləşmiş şəhər xəstəxanası tam təmir olunaraq sakinlərin istifadəsinə verilib. 100 və 143 saylı məktəblərdə əlavə tədris korpusları tikilib, 90 saylı uşaq bağçası əsaslı təmir olunub, 211 saylı bağça isə müasir üslubda yenidən inşa edilərək uşaqların istifadəsinə verilib. Hesabat ilində qəsəbədəki kommunikasiya xətləri əsaslı təmir edilib, yollar asfaltlanıb. 2013-cü ildə küçə və məhəllələrə ümumilikdə 111732 kv.metr asfalt örtüyü döşənib".

Məruzədə bildirilib ki, hesabat ilində yerlərdə əhalinin müraciətlərinin araşdırılaraq həll olunmasına dair rayon icra hakimiyyəti başçısının tapşırıq və tövsiyələrinə xüsusi diqqət yetirilib: "25 yanvar, 17 may və 11 oktyabr 2013-cü il tarixlərində rayon icra hakimiyyəti başçısının qəsəbə sakinləri ilə geniş tərkibdə keçirdiyi görüşlər böyük əhəmiyyətə malik olub. Həmin görüşlərdə sakinlər tərəfindən 40 məsələ qaldırılıb və onlardan 7-si yerindəcə həll olunub, müəyyən vaxt tələb edən 33 məsələ aidiyyəti qurumlara göndərilib. RİH başçısının tapşırığı əsasında qəsəbə nümayəndəsi və bələdiyyə sədrinin iştirakı ilə ayda iki dəfə sakinlərlə səyyar görüşlərin keçirilməsi təşkil edilib. Keçirilmiş 12 görüşdə 274 sakin iştirak edib və 27 məsələ qaldırılıb. Bunlardan 17-si icra edilib, 10 məsələnin həlli ilə əlaqədar aidiyyəti qurumlara müraciət olunub".

Qəsəbə ərazisində təmizliyin daim diqqət mərkəzində saxlandığını deyən icra nümayəndəsi bu sahədə də işlərin uğurla icra olunduğunu yığıncaq iştirakçılarının diqqətinə çatdırıb: "Ərazilərin sanitar-gigiyenik normalara cavab verməsi günün ən vacib məsələlərindən biridir. Məişət tullantılarının yığıldığı yerlərin abadlaşdırılması, müasir tipli yeni meydançaların tikilməsi, tullantıların vaxtında daşınması və yeni texnika və avadanlıqların alınması işin səviyyəsini yüksəltməklə yanaşı, əhalinin böyük razılığına səbəb olub".

Hesabat ilində xidmət sahələrinin gördüyü işlərdən danışan M. Məmmədov bildirib ki, ötən müddət ərzində Qaz-istismar idarəsi tərəfindən köhnə qaz və su xətləri yenisi ilə əvəz olunub. Əhaliyə verilən qazın təzyiqi normallaşdırılıb. Qəsəbə sakinlərinin fasiləsiz elektrik enerjisi ilə təminatı istiqamətində görülən işlər başa çatmaq üzrədir. İşıqlandırmanı yaxşılaşdırmaq üçün küçələrdə ümumilikdə 65 ədəd müasir dirək quraşdırılıb".

Görülmüş işlərlə yanaşı, qəsəbə ərazisində həlli vacib problemlərdən də danışan icra nümayəndəsinin sözlərinə görə, başlıca problem 145 saylı Xüsusi Təyinatlı MKİS-in balansında olan yaşayış binalarının bərbad vəziyyətdə olmasıdır: "Binaların fasadlarının, dam örtüklərinin təmir edilməsinə, qazanxanaların yenidən qurulmasına, istilik təchizatının bərpasına və həyətlərin abadlaşdırılmasına ciddi ehtiyac var. Sözügedən binalardakı mövcud problemlər rayonun estetik görünüşünü korlamaqla yanaşı, əhalinin yaşayış şəraitində də bir çox çətinliklər yaradır. Qəsəbə ərazisində son dövrdə yaranmış digər bir problem isə "Xutor" yaşayış sahəsində evlərin sökülməsi ilə bağlıdır. Bu problemin həlli istiqamətində müzakirələr aparılır".

Qəsəbədə 2013-cü ildə "Ev təsərrüfatı" kitablarının yaradılması ilə bağlı işlərin həyata keçirildiyini deyən məruzəçi hazırda 12 min 445 ev təsərrüfatının qeydə alındığını bildirib: "Məlumat üçün nəzərinizə çatdırım ki, rayon icra hakimiyyətinin elektron şəbəkəsində "operativ məlumat" bloku fəaliyyət göstərir, gün ərzində qəsəbə ərazisində baş verən bütün hadisələr barəsində məlumatlar serverə yerləşdirilir, koordinasiya üzrə RİH başçısı Aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsi tərəfindən təhlil olunub aidiyyəti üzrə təqdim olunur. Yaranan problemlərin aradan qaldırılması istiqamətində aidiyyəti qurumların gördüyü tədbirlər nümayəndəlik tərəfindən nəzarətdə saxlanılır. Rayonumuzda "Elektron hökumət"in yaradılması nümayəndəliyin fəaliyyətində müvafiq dəyişikliyi zəruri edir. İcra başçısının 28.11.2013-cü il tarixli 145 saylı əmri ilə artıq qəsəbəmizdə sakinlərə elektron kargüzarlıq xidmətlərinin göstərilməsinə başlanılıb. Bu günədək 15 qəsəbə sakini elektron formada arayış alıb".

Məruzəçinin bildirdiyinə görə, nümayəndəliyə müraciət edən hər bir sakinin problemlərinə diqqət və qayğı ilə yanaşılıb: "İl ərzində rayon icra hakimiyyətindən nümayəndəliyə 126, vətəndaşlardan isə 38 ərizə və şikayət daxil olmuşdur. İcra hakimiyyətindən daxil olan müraciətlərdən məlum olub ki, qəsəbə sakinlərindən 23 nəfəri Azərbaycan Respublikasının Prezidenti Administrasiyasına, 2 nəfər Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevaya, 5 nəfər Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edib.

Hesabat dövründə "Sakinlərin müraciət xidməti"nə (1646) Rəsulzadə qəsəbəsindən daxil olmuş 447 şikayətin 358-i tam həll olunub".

İcra nümayəndəsi qəsəbə ərazisində baş vermiş cinayət faktları barədə də danışıb: "Rayon polis idarəsinin 7-ci və 4-cü polis bölmələrindən verilən məlumatlara görə, 2013-cü ildə qəsəbə ərazisində 136 cinayət hadisəsi qeydə alınıb. Onlardan 94-nün üstü açılıb, 42 cinayət hadisəsi ilə əlaqədar hazırda istintaq tədbirləri həyata keçirilir".

Sonra hesabat ətrafında müzakirələr başlayıb.

Məhəmməd Əmin Rəsulzadə bələdiyyəsinin sədri Hümbət Hüseynov, qəsəbə sakinləri Cahangir Məmmədov, Rizvanə Sadıqova və Nəzakət Məmmədova çıxış edərək, rayon ərazisində və qəsəbədə aparılan abadlıq-quruculuq, təmir-tikinti işlərinə görə icra hakimiyyəti başçısına minnətdarlıqlarını bildirib, qəsəbədə bəzi sosial məsələlərin həllinə köməklik göstərilməsini xahiş ediblər.

Yığıncağın sonunda Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı cənab Xaləddin İsgəndərov nümayəndəliyin 2013-cü ildə gördüyü işlərə münasibət bildirərək bəzi nöqsan və çatışmazlıqların olduğunu qeyd edib, sakinlərə göstərilən xidmətlərin təşkilində və qəsəbə əhalisinin müraciətlərinə baxılmasında bir sıra qüsurlara yol verildiyini vurğulayıb, vətəndaşların müraciətlərinə ciddi yanaşılması və qısa müddət ərzində işdə əsaslı irəliləyişə nail olunması ilə bağlı müvafiq göstərişlərini verib.

Hesabat yığıncağının yekununda müvafiq qərar qəbul olunub.

Bütün layihələr, görülən işlər sakinlərin rahatlığı üçündür

MAİL AĞAXANOV

Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən təşkil edilən və artıq ənənə halını alan səyyar görüşlər əhalinin problemlərinin həllində mühüm rol oynayır. Növbəti belə bir görüş yanvarın 24-də Biləcəri qəsəbəsi, N.Həşimi küçəsi, 33 saylı binanın qarşısında yerləşən "xeyir-şər evi"ndə keçirilib.

Görüşdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, RİH başçısının müavinləri, Aparatın şöbə müdirləri, müxtəlif idarə və müəssisələrin, hüquq-mühafizə orqanlarının rəhbərləri, habelə 207 nəfər qəsəbə sakini iştirak ediblər.

Tədbirdə çıxış edən Xaləddin İsgəndərov sakinləri salamlayaraq bildirib ki, ölkə başçısı cənab İlham Əliyevin tövsiyə və tapşırıqlarına müvafiq olaraq yerlərdə müntəzəm görüşlər keçirilir, sakinləri narahat edən problemlərin həlli istiqamətində tədbirlər görülür. 2013-cü ilin Binəqədi rayonu üçün uğurlu nəticələrlə yadda qaldığını vurğulayan icra başçısı bu il əhalini qayğılandıran problemlərin həlli ilə bağlı müxtəlif layihələrin həyata keçiriləcəyini bildirib.

X.İsgəndərov Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın ictimai-siyasi həyatın müxtəlif sahələrində böyük uğurlara imza atdığını, həyata keçirilən genişmiqyaslı abadlıq-quruculuq işləri nəticəsində paytaxt və bölgələrin simasının dəyişdiyini, insanların sosial rifah halının yüksəldiyini bildirib.

Problemlərin həllinə imkan yaradan belə görüşlərin xoş ənənəyə çevrildiyini deyən icra başçısı onu da bildirib ki, Prezident İlham Əliyevin icra strukturları



qarşısında müəyyənləşdirdiyi ən başlıca vəzifə insanlara layiqli xidmətdir və Binəqədi rayon rəhbərliyi də bu prinsipi öz fəaliyyətində daim əsas tutmağa çalışır: "Belə görüşlərin təşkilində məqsəd sakinləri narahat edən məsələləri onların öz dilindən eşitmək, nöqsan və çatışmazlıqların, sosial problemlərin həlli istiqamətində addımlar atmaqdır. Rayona icra başçısı təyin olunduğum ötən müddət ərzində daim insanlarla canlı, səmimi ünsiyyət yaratmağa, problemlərini öyrənməyə çalışmışam. Biz bu görüşlərdə qaldırılan problemlərə, səsləndirilən rəy və təkliflərə ciddiliklə yanaşır, onların həlli üçün rayonun bütün mövcud imkanlarından, resurslarından maksimum istifadə edirik. Lakin bütün mövcud problemləri qısa müddətdə həll etmək mümkün deyil və bunun üçün müəyyən zamana ehtiyac var. Nəzərinizə çatdırmaq istəyirəm ki, bizə edilən bütün müraciətlər qeydiyyata alınır və aidiyyəti şöbələrə göndərilir. İcra hakimiyyəti tərəfindən həyata keçirilən bütün layihələr, görülən işlər əhalinin rahatlığı, yaxşı yaşaması üçündür".

Görüşdə çıxış edən qəsəbə sakini Mürvət Quliyev rayon icra hakimiyyətinin fəaliyyətinin insanlarda böyük razılıq və ümid hissi doğurduğunu bildirib: "Son illərədək Binəqədi rayonunda, o cümlədən Biləcəri qəsəbəsində çoxsaylı problemlər mövcud idi. Demək olar ki, onların həllinə ümidimizi itirmişdik. Ancaq Xaləddin müəllimin rayonumuza icra başçısı təyin olunmasından sonra bu sahədə çox ciddi dönüş yaranıb. Qəsəbəmizdə son bir ildə böyük abadlıq-quruculuq işləri görülüb və hazırda da davam etdirilir. Xüsusən bərbad vəziyyətdə olan qəsəbədaxili yollarımız asfaltlanıb, yeni istirahət parkları salınıb".

Daha sonra qəsəbə sakinlərindən Gülay Sadıqova, Rafiq Məmmədov, Səbuhi Ağayev, Sona Əsədova və başqaları həyata keçirilən abadlıq-quruculuq işlərinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər və onları narahat edən bəzi nöqsan və çatışmazlıqların aradan qaldırılmasını xahiş ediblər.

Görüşün sonunda icra başçısı Xaləddin İsgəndərov sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti qurumların rəhbərlərinə tapşırıqlar verib.

cəmiyyət

Mübarizəyə səsləyən güllələnmiş heykəllər...

ESMİRA ORUCOVA

Yanvarın 25-də Biləcəri qəsəbəsindəki Mədəniyyət və istirahət parkının akt zalında böyük canlanma var idi. Burada Şuşa Musiqili Dram Teatrının yaradıcı kollektivi Milli Məclisin deputatı, yazıçı-dramaturq Hüseynbala Mirələmovun müəllifi olduğu "Güllələnmiş heykəllərin fəryadı" əsərinin teatr tamaşası nümayiş etdirilirdi. Əsərin quruluşçu rejissoru Nadir Rüstəmov, quruluşçu rəssamı Valeh Məmmədov, musiqi tərtibatçısı isə teatrın direktor müavini Azad Məmmədovdur.

Tamaşanı izləyənlər arasında Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, RİH başçısı Aparatının məsul işçiləri, Milli Məclisin deputatları – Hüseynbala Mirələmov, Hadi Rəcəbli, Cavanşir Paşazadə, İlham Məmmədov, eləcə də rayon ictimaiyyətinin müxtəlif təbəqələrinin nümayəndələri iştirak edirdilər.

Səhnədə diqqəti ilk cəlb edən əzəməti və vüqarı ilə dillərdə dastan olan Şuşa qalasının təsviri idi. Tamaşanın nümayişindən əvvəl Şuşa şəhərinin tarixi barədə ətraflı məlumat verildi. Zalda əyləşənlər video-çarx vasitəsilə şəhərin əvvəlki və işğaldan sonrakı görüntülərini izlədilər. Azərbaycan musiqi tarixinin tanınmış simalarından olan dahi Üzeyir Hacıbəyovun "Koroğlu" üverturasının, habelə Bülbülün ifasında "Sənsiz" romansının sədaları altında dağıdılmış binaların, xarabalığa çevrilmiş yerlərin nümayişi insanlarda yurd həsrətini, Vətən nisgilini bir daha təzələdi. Vandal xislətli düşmənlərimiz Azərbaycanın musiqi və mədəniyyət karifeylərinin qan ağlayan ruhundan və cansız heykəllərindən də sanki tələşlanmışdılar. Erməni silahlıları tərəfindən güllələbaran edilmiş dahi şəxsiyyətlərin heykəlləri xalqı azadlığa, mübarizəyə, birliyə səsləyirdi.

Xurşudbanu Natəvan, Molla Pənah Vaqif, Bülbül, Üzeyir Hacıbəyli və Şuşanın digər tanınmış şəxsiyyətlərinin heykəlləri səhnədə görünəndə zaldakıların üzərinə elə bil su ələndi. Daş heykəllər sanki dil açıb danışır, haraya çağırırdılar... Qəhərini, göz yaşlarını zorla boğmağa çalışan izləyicilər növbəti səhnədə nələrin baş verəcəyini səbrsizliklə gözləyirdilər.

..."Güllələnmiş heykəllərin fəryadı" tamaşasını səhnələşdirənlər çarizmin Qafqaz siyasətini, tarixi düşmənlərimizin Azərbaycana qarşı çirkin iddialarını, xalqımıza qarşı törədilmiş faciələri böyük məharətlə canlandırıblar. Teatrın rəhbəri, əməkdar artist və rejissor Yadigar Muradovun böyük ürək ağrısı ilə ifa etdiyi "Şuşa" mahnısı zalda əyləşənləri xəyalən o günlərə - vaxtilə igidlərimizin at oynatdığı "Cıdır düzü"nə, "İsa bulağı"na aparırdı...

Tamaşada, həmçinin, Pənahəli xanın igidliyindən, İbrahim Xəlil xanın qızı Ağabəyim ağanın qeyrətindən, Vətən sevgisindən bəhs edilir. Molla Pənah Vaqifin Xurşudbanu Natəvanın güllələnmiş heykəllərinin fonunda "Görmədim" və "Ölürəm" şeirinin səslənməsi qaysaqlanmış yaraların "közünü qoparırdı". "Xarı bülbül"ün həzin sədaları bizi qisasa, mənfur düşmənə qarşı müqəddəs savaşa səsləyirdi.

Tamaşanın sonunda əlində üçrəngli Azərbaycan bayrağı tutmuş hərbi geyimli gənc qürurla səhnəyə daxil oldu. Bu zaman Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin "Biz istənilən yolla öz torpaqlarımızı düşmən tapdağından azad edəcəyik" - bəyanatının səsləndirilməsi bütün zalı ayağa qaldırdı, gurultulu və sürəkli alqışların ardı-arası kəsilmirdi.

Daha sonra səhnəyə dəvət edilən yazıçı-publisist Hüseynbala Mirələmov bildirdi ki, "Güllələnmiş heykəllərin fəryadı" əsəri azərbaycanlıları birliyə, həmrəyliyə, düşmənə qarşı barışmaz mövqeyə, bir məqsəd uğrunda mübarizəyə çağırır. Müəllif tamaşanın hazırlanmasında göstərdiyi dəstəyə görə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərova dərin minnətdarlığını bildirdi. Milli Məclisin deputatı onu da əlavə etdi ki, Ali Baş Komandan, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında Qarabağa qayıtmaq olan ən böyük arzusunun çin olacağına bütün varlığı ilə inanır.

Teatrın rəhbəri, əməkdar artist Yadigar Muradov bildirdi ki, yaradıcı heyət tamaşanın hazırlanmasına böyük səylə yanaşıb: "Zamanın sınağından keçən, Şuşanın mədəni həyatının canlı yadigarı olan Şuşa Musiqili Dram Teatrı keşməkeşli, mübariz və şərəfli yol keçərək bəlli bir yaradıcılıq yolu müəyyənləşdirib. Bu yolda qatlandığı məhrumiyyətlərə, çətinliklərə baxmayaraq, illərin sınağından keçib, ayaqüstə durmağı bacarıb. İndiyədək teatrımızda tanınmış sənətkarların müxtəlif janrlardakı əsərləri nümayiş etdirilib. Mədəniyyət ocağı hazırda Binəqədi rayonu ərazisində yerləşən köhnə "Savalan" kinoteatrının binasında xidmət göstərir. Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov mədəni irsimizin qorunub saxlanmasına, inkişaf etdirilməsinə xüsusi önəm verir. Biz də bu qayğıdan bəhrələnir, göstərilən etimadı doğrultmağa çalışırıq".

Yazıçı-dramaturq Ənvər Əhməd tamaşadan təsirləndiyini bildirərək aktyorlara təşəkkürünü bildirdi. O, həmçinin, müəllifi olduğu "Qanlı torpaq" əsərinin də teatrda tamaşaya qoyulacağını diqqətə çatdırdı.

Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov tamaşanı yüksək sənətkarlıqla nümayiş etdirdiklərinə görə teatrın yaradıcı heyətinə dərin təşəkkürünü bildirdi: "Bu tamaşaya baxanda sanki özünü hadisələrin içində hiss edirsən. Xalqımızın başına gətirilən müsibətlər gözlərimiz önündə bir daha canlandı. Şuşa Azərbaycanın qədim mədəniyyət ocağıdır. Hər bir azərbaycanlı Vətənin azadlığı və bütövlüyü uğrunda səfərbər olmalıdır. Hamımız bir nəfər kimi Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşməli və ona bütün gücümüzlə dəstək verməliyik. Yalnız o halda həsrətində olduğumuz Böyük Qələbə də bizim olacaq".

Biləcərinin ötənilki uğurları...

"2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" müvəffəqiyyətlə başa çatdırılıb

MƏHƏBBƏT ORUCOV

Yanvarın 23-də Biləcəri qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin 2013-cü ilin yekunları ilə bağlı hesabat yığıncağı keçirildi. İclasda Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılov, RİH başçısı Aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Ramiz Göyüşov, Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Elnur İmanov və qəsəbə ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Yığıncaqda hesabat məruzəsi ilə çıxış edən Biləcəri QİƏD üzrə nümayəndə İbad İbrahimov deyib: "Ötən il respublikamızda çox böyük infrastruktur layihələri həyata keçirilib. 2003-2013-cü illərdə Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmiz bütün sahələrdə böyük uğurlar əldə edib. Sənayedə, kənd təsərrüfatında, sosial və idman sahəsində fundamental layihələr həyata keçirilib və bütün bunlar əhalinin həyat səviyyəsinin yüksəlməsinə səbəb olub. Təbii ki, bu uğurlarda binəqədililərin də payı var. Ölkə başçısının birbaşa göstərişləri, tapşırıqları və tövsiyələrinə uyğun olaraq, Binəqədi rayonunda geniş abadlıq, quruculuq işləri aparılıb, əhalinin sosial rifahı naminə səmərəli işlər görülüb".

Məruzəçi bildirib ki, Biləcəri qəsəbəsi ərazisi və əhalisinin sayına görə rayonun ən iri yaşayış məntəqələrindən biridir. Hazırda qəsəbədə qeydiyyatda olan əhalinin sayı 35 min 500, müvəqqəti məskunlaşmış məcburi köçkünlərin sayı 13 min 500, qeydiyyatsız yaşayanların sayı 21 min nəfərə yaxındır. Ümumilikdə qəsəbədə 70 min nəfərdən çox əhali yaşayır. Biləcəridə 7 tam orta məktəb, 10 uşaq bağçası, 1 mədəniyyət evi, 2 idman məktəbi fəaliyyət göstərir.

İcra nümayəndəsinin sözlərinə görə, hesabat dövründə qəsəbə nümayəndəliyinə 219 ərizə və 252 məktub daxil olub. Ərizə və şikayətlərdə sakinlər əsasən daxili yolların asfaltlanması, kanalizasiya xətlərinin çəkilməsi, qaz təchizatındakı nöqsanlar, qanunsuz tikililərin sənədləşməsi ilə bağlı müraciət ediblər. "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, hər həftənin I və III günləri vətəndaşların qəbulu həyata keçirilib. İl ərzində 329 nəfər dinlənilib, nümayəndəliyin səlahiyyətlərinə aid olan məsələlər yerindəcə həll edilib: "Hesabat dövründə sakinlər tərəfindən nümayəndəliyə 113 yazılı müraciət (ərizə) daxil olub. Daxil olan ərizələr əməkdaşlarımız tərəfindən araşdırılıb, müvafiq tədbirlər görülüb və ərizə sahiblərinə rəsmi cavablar verilib. 2013-cü ilin yanvar-fevral aylarında "Ev təsərrüfatı" kitablarının yaradılması (təsərrüfat uçotu) ilə bağlı işlərə başlanılıb və verilən müddət ərzində Biləcəri qəsəbəsi üzrə 16150 təsərrüfat qeydiyyata alınıb. Kitabda 55794 nəfər təsərrüfat üzvü haqqında məlumat yerləşdirilib. Hazırda ev təsərrüfatlarının elektronlaşdırılması prosesi gedir. Bu günə qədər 9322 ev təsərrüfatının və həmin təsərrüfatların 26533 üzvü haqda məlumatların elektron versiyası işlənilib. Bundan əlavə, ötən dövr ərzində Biləcəri qəsəbəsindən Binəqədi Rayon İcra Hakimiyyətinin "Sakinlərin Müraciət Xidməti – 1646"ya 626 müraciət daxil olub. Onlardan 510-u tam həllini tapıb, 111-i ilə əlaqədar müvafiq izahat verilib, 4-ü qismən həll edilib, 1-i isə icraatdadır. Bundan başqa, lift, istilik, ATS və nəqliyyatla bağlı ümumilikdə 27 məsələ qaldırılıb və həmin məsələlər də vaxtında öz həllini tapıb".

Məruzəçi bildirib ki, hesabat ilində qəsəbədə 20 Yanvar şəhidlərinin xatirəsinə ucaldılmış abidə kompleksində abadlıq işlərinə başlanılıb və icra hakimiyyəti başçısının birbaşa dəstəyi ilə qısa vaxt ərzində işlər başa çatdırılıb: "Əvvəlki abidə kompleksi xalqımızın milli mübarizə ruhunu tam təcəssüm etdirmədiyinə görə sökülərək, yerində hadisənin rəmzinə uyğun olaraq "Güllə Yağışı" abidə kompleksi ucaldılıb. Kompleksin ətrafında yaşıl çəmənlik salınıb, dekorativ gül kolları və ağaclar əkilib. Parkda qranit daşlardan istifadə etməklə 300 kvadratmetrə yaxın qoruyucu hasar çəkilib, müasir işıqlandırma sistemi quraşdırılıb.

Hesabat dövründə qəsəbədə yaşıllıqların salınmasına da xüsusi diqqət yetirilib. Qəsəbəmizin mərkəzi yollarının kənarlarında, Bakı-Sumqayıt yolunun Biləcəri qəsəbəsinin ərazisindən keçən hissəsində dünyanın müxtəlif guşələrindən gətirilmiş minlərlə dekorativ ağac və gül kolları əkilib, yaşıllıqlar salınıb, gecələr əraziyə xüsusi gözəllik verən müasir işıqlandırma sistemi quraşdırılıb. Binaların qarşısında sakinlərin və uşaqların asudə vaxtlarını, rahatlıqlarını təmin etmək üçün mini-futbol, voleybol meydançaları, köşklər tikilib, səkilər çəkilib, çəmənliklər salınıb, uşaqlar üçün müxtəlif növ əyləncə qurğuları qoyulub. Bundan əlavə, qəsəbədə sakinlərin daha sıx yaşadıqları ərazilərdə 250-300 nəfərlik müasir tipli 6 "xeyir-şər" evi tikilib və avadanlıqlarla təchiz olunaraq əhalinin istifadəsinə verilib.

Binəqədi rayon rəhbərliyinin yaxından təşəbbüsü və dəstəyi ilə 2013-cü ilin ayrı-ayrı bayram günlərində imkansızlara, şəhid və məcburi köçkün ailələrinə ərzaq və digər yardımlar göstərilib. Dövlət Proqramına uyğun olaraq, 295 saylı uşaq bağçası, 284 saylı tam orta məktəb əsaslı təmir olunub.

Yüksək mərtəbəli binaların istiliklə təmin edilməsi məqsədilə 6 qazanxananın 4-ü istismara hazırdır, 2 qazanxanada isə son tamamlanma işləri sürətlə davam etdirilir. Gənclərin asudə vaxtlarını səmərəli keçirmələri üçün qəsəbəmizdə 2 idman məktəbi, 2 açıq idman meydançası fəaliyyət göstərir.

Dövlət Proqramına uyğun olaraq, qəsəbə sakinlərinin fasiləsiz və normal gərginlikli elektrik enerjisi ilə təchiz edilməsi üçün ayrı-ayrı ünvanlarda 20-yə yaxın yeni transformator quraşdırılıb və ya təmir edilib. Yolların genişləndirilməsi ilə əlaqədar ehtiyac olan yerlərdə 145 ədəd elektrik dayaqlarının yeri dəyişdirilib, 3000 metrdən artıq yüksək gərginlikli kabel xətti yenisi ilə əvəz edilib.

Qəsəbə sakinlərinin içməli su ilə təchizatı xeyli yaxşılaşdırılıb. 3360 metr uzunluğunda müxtəlif diametrli su xətləri yenisi ilə əvəz olunub, 7300 metrə qədər müxtəlif diametrli kanalizasiya xətləri dəyişdirilib. Qəsəbənin qaz təhcizatında da nəzərəçarpan uğurlar əldə olunub. Əhalinin fasiləsiz təbii qazla təchiz edilməsi məqsədilə qaz xətlərinin təmiri və yeni xətlərin çəkilişi qrafikə uyğun aparılır. 2013-cü ildə qəsəbə ərazisində müxtəlif diametrli 47 000 metrə yaxın qaz xətti çəkilib, 11 ədəd qaztənzimləyici şəbəkə quraşdırılıb. Qaz təchizatı ilə əlaqədar aparılan işlərin 2014-cü ilin sonunadək başa çatdırılması nəzərdə tutulub.

Yola saldığımız ildə qəsəbənin ərazisində məişət tullantılarının vaxtında daşınması Biləcəri Bələdiyyəsi tərəfindən təmin olunub. Daşınma üçün xüsusi təyinatlı maşın və mexanizmlər alınıb. Qəsəbə ərazisindəki 103 meydançaya rayon icra hakimiyyəti tərəfindən alınmış 321 ədəd müasir tipli konteyner qoyulub. Nəticədə məişət tullantılarının toplanması və vaxtında daşınması yüksək səviyyədə təşkil edilib".

İ.İbrahimov qəsəbədə müəyyən problemlərin olduğunu da yığıncaq iştirakçılarının diqqətinə çatdırıb: "Təəssüflə qeyd etmək istəyirəm ki, qəsəbəmizdə radikal dini qruplara meyilli insanlara da rast gəlinir. Belə halların qarşısının alınması üçün gənclərlə maarifləndirmə işləri aparılır və aidiyyəti qurumlarla sıx əməkdaşlıq edirik. Qəsəbədə ictimai-siyasi vəziyyət stabildir, sakinlərimizin böyük əksəriyyəti Prezidentimizin rəhbərliyi altında aparılan daxili və xarici siyasəti dəstəkləyir. Bizi narahat edən faktlardan biri də qəsəbə ərazisində cinayət faktlarının artmasıdır. İl ərzində qəsəbə üzrə 294 cinayət hadisəsi qeydə alınıb, 209 cinayətin üstü açılaraq məhkəməyə göndərilib. Amma bununla belə, hesabat dövründə cinayətlərin sayının artması bizi narahat edir. Belə ki, ötən il ərzində 36 ağır və xüsusilə ağır cinayət faktı qeydə alınıb və bu növ cinayətlərin açılması 71.1 faiz təşkil edib. Ümid edirik ki, 2014-cü ildə hüquq-mühafizə orqanlarının əzmkarlığı sayəsində cinayətkarlığın azalmasına və vaxtında açılmasına nail olunacaq".

Hesabat məruzəsində, həmçinin, gələcəkdə görüləcək işlərdən də söz acılıb. İcra nümayəndəsi qeyd edib ki, qəsəbədə yeni məktəblərin, uşaq bağçalarının və hazırda fəaliyyət göstərən məktəblərdə yeni korpusların tikilməsinə ehtiyac var: "Şübhə etmirəm ki, 19 yanvar 2014-cü ildə ölkə Prezidenti tərəfindən imzalanmış "2014-2016-cı illərdə Bakı şəhəri və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafının sürətləndirilməsi haqqında" Dövlət Proqramına uyğun olaraq bütün məsələlər öz həllini tapacaq".

Məruzə dinlədildikdən sonra hesabat ətrafında müzakirələr aparılıb.

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılov nümayəndəliyin 2013-cü ildə gördüyü işlərə münasibət bildirərək, ümumi fəaliyyətin qənaətbəxş olduğunu qeyd etməklə yanaşı, bəzi nöqsan və çatışmazlıqların mövcudluğunu da nəzərə çatdırıb. Daha sonra V.İsmayılov cari ildə qəsəbənin sosial-iqtisadi inkişafı sahəsində görüləcək tədbirlərdən danışıb.

Yığıncağın yekununda müvafiq qərar qəbul olunub.

Sosial-iqtisadi sahədə ciddi nailiyyətlər əldə olunub

MAİL AĞAXANOV

Yanvarın 28-də 3 saylı tam orta məktəbin akt zalında Binəqədi Rayon İcra Hakimiyyətinin 1 nömrəli sahə inzibati ərazi dairəsi (SİƏD) üzrə nümayəndəliyinin 2013-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilmişdir. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva, RİH başçısı Aparatının şöbə müdirləri Ramiz Göyüşov, Yəhya Əliyev və qəsəbə sakinləri iştirak etmişlər.

Yığıncağı giriş sözü ilə açan Aygün Əliyeva 2013-cü ilin ölkəmiz üçün kifayət qədər uğurlu olduğunu demişdir: "Yola saldığımız 2013-cü il il sosial-iqtisadi sahədə qazanılan ciddi naliyyətlər ilə yadda qaldı. Azərbaycan iqtisadiyyatı son 10 ildə heç vaxt çata bilmədiyi bir zirvəyə yüksəlmişdir. Ölkəmizin iqtisadiyyatı dünyada artım tempinə görə öndə gedən ölkələr sırasındadır. Davos kimi mühüm iqtisadi forumun müəyyənləşdirdiyi iqtisadiyyatın rəqabətlilik qabiliyyətinə görə Azərbaycan 39-cu yerdədir. Bu o deməkdir ki, uğurlarımızı yalnız biz görmürük, beynəlxalq iqtisadi təşkilatlar görür və yüksək qiymətləndirirlər. Həmçinin, Azərbaycan 2013-cü ildə "Şahdəniz-2" kimi mühüm bir investisiya layihəsi ilə diqqəti cəlb etmişdir.

2013-ci il ölkəmizdə "İKT ili" kimi yadda qaldı. Azərbaycan kosmik dövlətlər sırasına daxil oldu. Cənab Prezidentin göstərişi ilə reallaşan bu hadisə ilə ölkə başçımız bir daha sübüt etdi ki, mümkün olmayan heç bir şey yoxdur. Bu onu göstərir ki, Azərbaycanın gələcəyinə çox böyük ümidlər, müsbət gözləntilər var. Cənab Prezidentin bu istəklərini yerinə yetirmək üçün yerli icra strukturlarının üzərinə böyük vəzifələr düşür. Əgər sosial-iqtisadi inkişafdan, abadlıq-quruculuq işlərindən söhbət gedirsə, düşünürəm ki, Binəqədi rayonu buna ən gözəl nümunədir. Bu gün Binəqədi öz inkişaf tempinə görə Bakının digər rayonlarına nümunədir".

Sonra 1 nömrəli Sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin sədri Nəsimi Cəfərov hesabat məruzəsi ilə çıxış etmişdir. Məruzədə sözügedən SİƏD üzrə nümayəndəliyə daxil olan 2 mikrorayon (7 və 8) və 1 yaşayış massivində (Dərnəgül) görülən işlərdən bəhs olunmuşdur. Qeyd edək ki, nümayəndəliyin ərazisi 3,2 kv.km, əhalisi isə 44.500 nəfərdir. Bundan başqa, ərazidə 15171 nəfər məcburi köçkün məskunlaşmışdır.

N. Cəfərovun sözlərinə görə, hesabat ilində ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" çərçivəsində 135 və 248 saylı tam orta məktəblərin, 158 saylı körpələr evi-uşaq bağçasının və 7-ci mikrorayon ərazisində mini-futbol meydançasının təmir-tikinti işləri, 244 saylı tam orta məktəbdə əlavə sinif otaqlarının tikintisi başa çatmışdır. Eyni ərazidə yerləşən 151, 177 və 193 saylı körpələr evi-uşaq bağçalarında da əsaslı təmir işləri yekunlaşmışdır: "2014-cü il yanvar ayının 18-də cənab Prezident tərəfindən imzalanmış "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nda nümayəndəliyin ərazisində görüləcək bir sıra işlər öz əksini tapmışdır. Belə ki, ərazidə yerləşən 283 saylı tam orta məktəbin əsaslı təmir olunması, 6 nömrəli Bakı Peşə Liseyinin yenidən qurulması və 7-ci mikrorayonda

yanğından mühafizə bölməsinin tikintisi Dövlət Proqramına salınmışdır. Həmçinin, ərazidə qaz, elektrik enerjisi, istilik, su və kanalizasiya təchizatının yaxşılaşdırılması istiqamətində işlər davam etdiriləcəkdir".

İcra nümayəndəsi qeyd etmişdir ki, hesabat dövrü ərzində RİH başçısının iştirakı ilə nümayəndəliyin ərazisində 12 səyyar görüş keçirilmişdir. Bu görüşlərdə ümumilikdə 2000-ə yaxın rayon sakini iştirak etmiş və vətəndaşlar tərəfindən 186 məsələ qaldırılmışdır. Bu məsələlərdən bir qismi yerində həll olunmuş, digərləri icraata götürülmüşdür.

Nümayəndəliyin ərazisində aparılan abadlaşdırma və yenidənqurma işlərindən geniş danışan məruzəçi yeni abad məhəllələrin salınması, əhalinin elektrik və qaz təchizatının yaxşılaşdırılması istiqamətində həyata keçirilən yenilikləri sadalamışdır. Sakinlərin rahatlığı üçün həyətlərdə müasir parklar salınmış, istirahət guşələri yaradılmış, asudə vaxtin səmərəli keçirilməsi üçün köşklər quraşdırılmışdır. Abadlaşan həyətlərdə quru ağaclar kəsilmiş, hündür ağaclar budanmış və əlavə dekorativ ağaclar, kollar və 7500 kv.m çəmən əkilmişdir.

"Dərnəgül" metrostansiyasının üzərində yerləşən parkın ərazisində 450-yə yaxın ağac əkilmişdir.

Binaların giriş qapıları, dam örtükləri dəyişilmiş, yaxud təmir olunmuş, fasadlara üzlük çəkilmişdir. Əhalinin sosial-məişət problemlərinin həlli üçün yeni su kəmərləri çəkilmiş, qaz kəmərləri yenilənmiş, kanalizasiya şəbəkəsi təmir olunmuş, yaxud yenidən qurulmuşdur.

İcra nümayəndəsi onu da vurğulamışdır ki, İqtisadiyyat və Sənaye Nazirliyinin və Binəqədi RİH-in tövsiyələrinə əsasən, nümayəndəliyin ərazisində yerləşən çoxmənzilli yaşayış binalarında, mənzil qanunvericiliyinə uyğun olaraq, Mənzil Fondunun yeni idarəetmə üsuluna keçirilməsi (Mənzil Mülkiyyətçiləri Müştərək Cəmiyyətinin yaradılması – MMMC) ilə əlaqədar müvafiq işlər görülür. Belə ki, sözügedən mənzil mülkiyyətçiləri ilə təbliğat işləri aparılaraq, onlara Mənzil Fondunun yeni idarəetmə üsuluna keçirilməsinin müsbət tərəfləri izah olunmuşdur.

Aparılan bütün işlərin nəticəsi olaraq, hesabat ilində nümayəndəliyin ərazisində 3 yaşayış binasının (S.S.Axundov 4, İ.Dadaşov 91 və 91a saylı) sakinləri birləşərək MMMC-nin yaradılması qərarına gəlmişlər. Onlar nizamnamələrini tərtib etmiş, 5 nəfərdən ibarət idarə heyəti, 3 nəfərdən ibarət isə təftiş komissiyasının üzvlərini seçmişlər. MMMC 2013-cü ilin dekabr ayında Ədliyyə Nazirliyində "Binəqədi-1" adı altında qeydiyyatdan keçmişdir. Hal-hazırda MMMC-nin formalaşması prosesi gedir.

Hesabat yığıncağının yekununda Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva nümayəndəliyin 2013-cü ildə gördüyü işlərə münasibət bildirərək, bəzi nöqsan və çatışmazlıqların aradan qaldırılmasını tövsiyə etmişdir.

Yığıncağın sonunda müvafiq qərar qəbul olunmuşdur.

Mənzillərin idarə edilməsində yeniliyə doğru daha bir addım

Binəqədidə Resurs-İnformasiya Mərkəzi açıldı

SİYAVUŞ ƏMİRLİ

2009-cu ildə qüvvəyə minən yeni Mənzil Məcəlləsi çoxmənzilli binaların idarə edilməsinin bir neçə üsulunu özündə ehtiva edir ki, onlardan da ən əsası Mənzil Mülkiyyətçiləri Müştərək Cəmiyyətinin (MMMC) yaradılmasıdır. Bu, mövcud mənzil-istismar sahələrinin ləğv olunaraq yeni, daha səmərəli idarəetmə formasının yaradılmasıdır. Artıq ötən ildən başlayaraq mənzil-kommunal sektorunda islahatların sürətləndirilməsi, yeni idarəetmə metodlarının tətbiqi ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən Avropa İttifaqının yardımı ilə "Mənzil-kommunal sahəsində islahatlara dəstək" adlı layihənin icrasına başlanılmışdır. Layihə çərçivəsində bu sahədə mövcud vəziyyətin iqtisadi və hüquqi cəhətdən təhlil olunaraq qiymətləndirilməsi, mənzil mülkiyyətçilərinin müştərək cəmiyyətlərinin yaradılmasının dəstəklənməsi işləri həyata keçirilir.

Bakı şəhərində pilot layihə olaraq Binəqədi rayonunda 2013-cü ildən başlanmış mənzil mülkiyyətçilərinin müştərək cəmiyyətlərinin yaradılması və həmin cəmiyyətlər vasitəsilə idarəetmənin təşkilinin formalaşdırılması başa çatmaq üzrədir . Bununla bağlı Binəqədi Rayon İcra Hakimiyyəti başçısının "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin icrası ilə əlaqədar tədbirlər haqqında" 27 may 2013-cü il tarixli sərəncamı əsasında komissiya yaradılmışdır. Komissiyaya əsaslı təmir olunan və fasadları üzlənmiş binalarda, habelə abadlaşdırılmış məhəllələrdə maarifləndirmə, izahat və təbliğat işlərinin aparılması, habelə çoxmənzilli binaların mülkiyyətçilərinə binanın idarə edilməsi üsullarının seçilməsi, həmin binalar üzrə müvafiq sənədlərin hazırlanması və dövlət qeydiyyatına alınması məsələlərinə hərtərəfli dəstək və kömək göstərmək tapşırılıb.

Aparılan işlərin məntiqi nəticəsi olaraq, yanvarın 24-də Binəqədi rayonunda çoxmərtəbəli mənzillərin idarə edilməsi ilə bağlı Resurs-İnformasiya Mərkəzinin açılışı olub.

Açılış mərasimində İqtisadiyyat və Sənaye Nazirliyinin nümayəndəsi Elşən Əsədov, Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının şöbə müdiri Ramiz Göyüşov, Avropa Birliyinin nümayəndəsi, layihə rəhbəri Jerzy Fiszer, hüquqşünas Azad Talıbov, "Əmlak bazarı iştirakçıları" İctimai Birliyinin rəhbəri Ramil Osmanlı, Media və İctimai Təşəbbüslər Mərkəzinin rəhbəri Samir Əliyev və mətbuat nümayəndələri iştirak ediblər.

Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının şöbə müdiri Ramiz Göyüşov qeyd edib ki, mərkəzin yaradılmasında əsas məqsəd Mənzil Məcəlləsinin tələblərinə uyğun yeni idarəetmə prinsipləri barədə əhalinin məlumatlandırılması və onlara müvafiq məsləhətlərin verilməsindən ibarətdir. Onun sözlərinə görə, mərkəz məsləhət xidmətləri, maarifləndirmə, ictimai məlumatlandırmanı həyata keçirəcək: "Mərkəz həftədə 5 gün şəhər sakinlərinə xidmət göstərəcək. Bununla bağlı sakinlərlə görüşlər keçirilib, onlara Resurs-İnformasiya Mərkəzi barədə məlumat verilib. Artıq bu gündən başlayaraq sakinlər mərkəzə müraciət edə bilərlər".

İqtisadiyyat və Sənaye Nazirliyinin nümayəndəsi Elşən Əsədov mənzil idarəçiliyi sahəsində dövlət siyasətindən danışıb. Onun sözlərinə görə, təmsil etdiyi nazirlik qanunvericiliklə onlara verilmiş öhdəliklər çərçivəsində əhalinin maarifləndirilməsini həyata keçirirlər. Bu müddətdə əhali ilə sistemli görüşlər təşkil olunmuş, onlara yeni Mənzil Məcəlləsinin prinsipləri izah edilmişdir.

E.Əsədov mərkəzin fəaliyyəti ilə bağlı əhaliyə xidmət göstərmək üçün ekspert və mütəxəssislərdən ibarət qrup yaradıldığını deyib: "Bu qrupa təmsil etdiyim nazirliyin və Binəqədi Rayon İcra Hakimiyyətinin mütəxəssisləri, Avropa Birliyinin layihə ekspertləri və mənzil idarəçiliyi üzrə ixtisaslaşan QHT-lərin ekspertləri daxildir. Bu ekspertlər növbəlilik əsasında mərkəzdə əhali ilə mütəmadi görüş keçirəcək və onları maraqlandıran sualları cavablandıracaqlar".

"Mənzil sektorunda islahatların aparılmasında Azərbaycana dəstək" layihəsinin rəhbəri Jerzy Fiszer Resurs-İnformasiya Mərkəzinin beynəlxalq təcrübədə geniş istifadə edildiyini bildirib: "İnformasiya resursunun açılması ilk addımdır. Bu mərkəz müxtəlif qrupların əməkdaşlıq formasıdır. Qazanılmış təcrübə gələcəkdə genişləndirilməlidir. Digər yaşayış binalarının sakinləri də bu işə qoşulmalıdır. Bir çox ölkələrdə belə mərkəzlər yaradılıb. İngiltərə, Polşa, Ukrayna, Baltik ölkələrində yeni mənzil idarəçiliyi təcrübəsindən geniş istifadə edilir".

Media və İctimai Təşəbbüslər Mərkəzinin rəhbəri Samir Əliyevin fikrincə, mərkəz əhalinin maarifləndirilməsi istiqamətində əhəmiyyətli rol oynaya bilər: "Apardığımız araşdırmalar göstərir ki, əhalinin yeni mənzil idarəçiliyi sahəsində bilgisi sıfır səviyyəsindədir. Onlar hesab edirlər ki, MİKS-lər ləğv edilsə, onların mənzillərinə xidmət göstərən olmayacaq. Vətəndaşlar bu səbəbdən də binanın idarəçiliyini öz üzərlərinə götürmək istəmirlər".

"Əmlak bazarı iştirakçıları" İB-nin rəhbəri Ramil Osmanlı resurs mərkəzinin daha səmərəli və aktiv fəaliyyət göstərməsi üçün əhaliyə məlumatlandırıcı vərəqələrin paylanmasını, ayrı-ayrı binalarda sakinlərlə görüşlərin həyata keçirilməsini təklif edib.

Sonda jurnalistləri və görüşdə iştirak edən sakinləri maraqlandıran suallar cavablandırılıb.

"ASAN xidmət"in 1 milyonuncu istifadəçisi binəqədilidir

MAİL

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və 1 saylı Bakı "ASAN xidmət" Mərkəzinin açılış mərasimindən artıq bir il ötür. Əldə etdiyimiz məlumata əsasən, artıq "ASAN xidmət" Mərkəzindən 1 milyon vətəndaş yararlanıb. Agentliyin beynəlxalq və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, 2014-cü il yanvarın 23-də Bakı şəhəri Binəqədi rayon sakini Lalə Məsimova 1 saylı Bakı "ASAN xidmət" Mərkəzinə müraciət etməklə 1 milyonuncu istifadəçi kimi qeydə alınıb.

Məlumatda o da bildirilib ki, Lalə Məsimova "ASAN xidmət" mərkəzinə şəxsiyyət vəsiqəsinin dəyişdirilməsi ilə bağlı müraciət edib və müvafiq xidmətdən yararlanıb.

Ötən il Dövlət Neft Fondunun gəlirlərində artım müşahidə olunub

Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) 2013-cü ildəki büdcə gəlirləri 13 600,5 milyon manat, xərcləri isə 12 302,7 milyon manat olmuşdur.

ARDNF-nin İctimaiyyətlə əlaqələr departamentindən bildirmişlər ki, 2013-cü il ərzində fondun neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 13.119,9 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışından 13.108,0 milyon manat, akrhesabı ödənişlər 1,8 milyon manat, tranzit gəlirləri 8,1 milyon manat, bonus ödənişləri 1,9 milyon manat, xarici sərmayəçilər tərəfindən təhvil verilmiş aktivlərdən gəlir 0,1 milyon manat təşkil etmişdir. Fondun vəsaitinin idarə olunmasından əldə edilən gəlirlər 480,6 milyon manata bərabər olmuşdur. Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı ARDNF-nin büdcədənkənar gəliri 43 milyon manat təşkil etmişdir.

Hesabat dövründə fondun 2013-cü il büdcəsinin icrası çərçivəsində 11.350 milyon manat vəsait dövlət büdcəsinə transfer edilmişdir. Qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 300 milyon manat, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasına 173,9 milyon manat, Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsinə 25,7 milyon manat vəsait ayrılmışdır. Hesabat dövründə 33 milyon manat vəsait "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsinə yönəldilmişdir. Fond tərəfindən Türkiyədəki "Star" neft emalı kompleksinin tikintisinə 372,6 milyon manat vəsait yönəldilmişdir. 2013-cü il ərzində ARDNF-nin idarə edilməsi ilə bağlı xərcləri 47,5 milyon manat təşkil etmişdir.

2014-cü il yanvarın 1-nə fondun aktivləri 2013-cü ilin əvvəlinə (34.129,4 milyon ABŞ dolları) nisbətən 5,1 faiz artaraq 35.877,5 milyon ABŞ dollarına bərabər olmuşdur.

2012-ci ildən etibarən ARDNF qızılın alınmasına başlamışdır və 2014-cü il yanvarın 1-nə fond tərəfindən alınmış qızılın miqdarı 30.175 kiloqrama (970.146 troya unsiyası) çatmışdır.

gənclik

"Hər bir xalq özünün xoşbəxt gələcəyi olan ümidlərini ilk növbədə gənc nəsillə bağlayır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsi onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir".

Ümummilli lider Heydər Əliyev

"Hər bir sahədə gənc kadrların hazırlanması prosesi daha da sürətlə getməlidir, məqsədyönlü şəkildə aparılmalıdır ki, biz gələcəkdə də bu inkişaf dinamikasını saxlaya bilək".

Azərbaycan Prezidenti İlham Əliyev

2 Fevral – Gənclər Günüdür

Dövlətin və xalqın gələcəyi gəncliyin əlindədir. Sabahını düşünən millət, hər şeydən əvvəl, gəncini düşünməli, öz gələcəyini təmin etmək üçün onun gücünə, zəkasına, iradəsinə əmin olmalıdır. Bunun üçün dövlətin və cəmiyyətin birgə fəaliyyəti, məqsədyönlü, gələcəyə istiqamətlənmiş siyasəti və strategiyası olmalıdır. Azərbaycanın bununla bağlı məqsədyönlü fəaliyyət proqramı həmişə olub, indi də var. Xüsusilə də ölkəmizdə müstəqillik illərində böyük vətənpərvər gənclər ordusu yaranmışdır. Demək olar, indi ölkədə gedən bütün islahatların mərkəzində gənclər dayanır. Bu gənclik Prezident İlham Əliyevin rəhbərliyi altında müstəqilliyimizin möhkəmləndirilməsinə, ölkədə uğurlu islahatların həyata keçirilməsinə, dövlət qarşısında duran vacib problemlərin həllinə öz sanballı töhfəsini verir.

Binəqədi rayonunda yaşayıb-yaradan bir qrup gənc bugünlərdə qəzetimizin qonağı olub, "Gənclər günü" ilə əlaqədar fikir və arzularını bildirib, gördükləri işlər barədə danışıblar.

Dövlətin böyük önəm verdiyi prioritet sahə

Səlcuq Müzəffərli,
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının tələbəsi

Azərbaycanın əldə etdiyi uğurların bir təminatı da insan kapitalı, yüksək peşə vərdişlərinə və əqli potensiala malik gənclər ordusudur. Çünki gənclik daim axtarışda olan, yeniliyi sevən, ideyalarla zəngin bir qüvvədir. Prezident İlham Əliyev bu meyarları nəzərə alaraq, ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə həmişə gənclərə böyük meydan verilməsinin tərəfdarı olmuş və ölkəmizdə bu şərait yaradılmışdır. Bu gün Azərbaycanda gənclər siyasəti dövlətin böyük önəm verdiyi prioritet sahələrdəndir. Gənclərimiz də bu imkanlardan yararlanır, cəmiyyətin inkişaf prosesinin avanqardına çevrilirlər.

Sovet quruluşunun stereotiplərinə görə cəmiyyətdə mövqe sahibi olmaq, dövlət strukturlarında çalışmaq üçün bəlli bir yaş həddini keçməli idin. Belə bir durumda gəncliyin dinamikliyindən, cəmiyyətdəki rolundan danışmağa dəyməzdi. Lakin 1995-ci ilin martında ümummilli lider Heydər Əliyev ölkə gəncləri ilə görüşərkən bu stereotipi qırdı, gənclərin sağlam ruhda tərbiyə alması, əsl vətəndaş kimi yetişməsi naminə əlindən gələni əsirgəməyəcəyini bəyan etdi. Ulu öndər 1997-ci ildə imzaladığı fərmanla fevralın 2-si tarixini "Gənclər günü" kimi təsbit etdi. Bununla da müasir Azərbaycan gəncliyinin inkişafının yeni mərhələsi başlandı. Bu siyasət çox geniş bir spektri – gənclərin cəmiyyətin bütün sahələrində fəal iştirakını əhatə edirdi. 1997-ci ildə gənclər siyasəti ilə bağlı ilk qanun da qəbul edildi.

Hazırda ölkəmizdə 200-dək gənclər təşkilatı fəaliyyət göstərir. Azərbaycan Gənclər Təşkilatı Milli Şurası Avropa miqyasında, beynəlxalq qurumlarda təmsil olunur. Bütün dövrlərdə millətin adını uca tutan sağlam gənc qüvvələr olmuşdur. Xalqımızın tarixini zənginləşdirən də onlardır. Bu gün adlarını qürurla çəkdiyimiz Mübariz İbrahimov, Fərid Əhmədov kimi xalqımızın yüzlərlə övladı Azərbaycanın qəhrəmanlıq tarixini yazan gənclərdir.

Hər bir dövlətin əsas missiyası gələcəyini etibar edəcəyi nəsil hazırlamaqdır. Prezident İlham Əliyevin 2005-ci il avqustun 30-da imzaladığı "Azərbaycan gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" sərəncamı gənclərə dövlət qayğısının artırılması məqsədinə xidmət edirdi. Dövlət Proqramında ölkəmizdə gənclərlə bağlı dövlət siyasətinin əsas istiqamətləri əksini tapmışdır. Bu istiqamətlər xalqımızın milli mənafelərinin inkişafına yönələrək gəncləri ideya müəllifi olmağa səsləyirdi. Yəni hər bir gənc fərdi qaydada özünü idarəçi kimi yetişdirməli, daim təşəbbüskarlıq göstərməli, özünütənqidi bacarmalıdır.

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı", habelə gənclərin təhsil səviyyəsinin yüksəldilməsi, sosial müdafiəsinin yaxşılaşdırılması sahəsində qəbul edilmiş digər sənədlər dövlətimizin biz gənclərə göstərdiyi qayğının parlaq ifadəsidir.

Yaşadığım Binəqədi rayonunda da gənclər siyasəti uğurla həyata keçirilir. Asudə vaxtımızı səmərəli keçirməyimiz, təklif etdiyimiz layihələrin reallaşması üçün rayonumuzda geniş imkanlar var. YAP Binəqədi rayon təşkilatının inzibati binasında yaradılmış şəraitdən tez-tez faydalanırıq. Biz partiyanın tədbirlərində könüllü iştirak edir və rayonun ictimai-siyasi həyatında əhəmiyyətli işlər görməyə çalışırıq.

Milli düşüncəyə malik gənclər formalaşır

Kübra Əliyarlı,
Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı Gənclər Birliyinin sədr müavini

Azərbaycan Prezidenti cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 10 il müddətində həyata keçirilən islahatlar nəticəsində bütün sahələrdə dinamik inkişafa nail olunub. Dövlət başçısının apardığı uğurlu siyasət ölkəmizin dünyada nüfuzunu və mövqelərini daha da möhkəmləndirib.

Dövlətin və xalqın inkişafına, vətəndaşların həyat səviyyəsinin yüksəldilməsinə xidmət edən bu siyasət gənclər sahəsindən də yan keçməyib. Ötən illərdə yürüdülən məqsədyönlü siyasət, müvafiq dövlət proqramlarının qəbulu bu sahədə ciddi irəliləyişlərə imkan yaradıb.

Prezident İlham Əliyev dövlətçiliyimizin, müstəqilliyimizin, milli-mənəvi dəyərlərimizin möhkəmləndirilməsi, onların təbliği, eləcə də ölkəmizin daha da inkişafı və çiçəklənməsi yönündə gənclərə diqqət və qayğını mühüm amil kimi hər zaman önə çəkir. Dövlət başçısı gələcəyimizin etibarlı təminatının peşəkar kadrların yetişdirilməsindən, gənclərin cəmiyyətin bütün sferalarında fəal iştirakından, onların aparıcı qüvvəyə çevrilməsindən asılı olduğunu hər zaman xüsusi vurğulayır.

Ölkə gənclərinin müxtəlif sahələrdəki uğurlu nəticələri Azərbaycanın milli təhlükəsizliyinin vacib şərtlərindəndir. Daha lakonik ifadə etsək, gənclərə münasibət həmin dövlətin gələcəyinə münasibətidir. Bu baxımdan, Azərbaycan gənclərinə xoş münasibət və yüksək qayğı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin əsasını təşkil edir.

Sevindirici haldır ki, Prezident İlham Əliyevin gənclər siyasətinin vacib istiqamətləri və bu siyasətdən irəli gələrək gənclərin hərtərəfli inkişafı naminə görüləcək işlər konkret dövlət proqramlarında öz əksini tapıb. Bu baxımdan, "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının əhəmiyyətini xüsusi vurğulamaq istərdim. Dövlət proqramının qəbulu ilə Azərbaycanda dövlət gənclər siyasətinin inkişafında keyfiyyətcə yeni mərhələnin əsası qoyulub.

Proqram çərçivəsində həyata keçirilən tədbirlər gənclərin hərtərəfli inkişafının təmini üçün siyasi, sosial-iqtisadi, təşkilati, hüquqi şərait və təminatların yaradılmasını sürətləndirməklə yanaşı, onların ictimai-siyasi fəallığının artmasına da kömək edir. Sənəddə dövlətin həyata keçirdiyi düşünülmüş, ardıcıl islahatlardan əhalinin bütün təbəqələri kimi gənclərin də hərtərəfli yararlanmasına şəraitin yaradılması nəzərdə tutulub. Dövlət Proqramının əsas məqsədi ölkəmizdə gənclər siyasətini inkişaf etdirmək, gənclərin menecment sahəsində fəal iştirakına şərait yaratmaq, gənc mütəxəssislərin işlə təminatı və digər sosial-iqtisadi problemlərinin həllini təmin etməkdir.

"Bugünkü gənc sabah ölkəmizi idarə edəcəkdir", – deyən Prezident İlham Əliyev gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun təmin edilməsi, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi məqsədilə kompleks tədbirlər həyata keçirir. Müvafiq Dövlət Proqramının qəbulu da bu istiqamətdə görülən işlərin mühüm tərkib hissəsidir.

Həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Azərbaycan gəncləri zaman keçdikcə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayırlar.

Gənclər hərtərəfli qayğı ilə əhatə olunublar

Leyla Abuzərova,
143 saylı orta məktəbdə gənclərlə iş üzrə nümayəndə

Müasir dövrdə gənclər və idman sahəsində qazanılan nəticələr hər bir dövlətin inkişaf göstəriciləri kimi mühüm aktuallıq kəsb edir. Bu sahələrin dinamik inkişafı Azərbaycanda da gənc nəslin fiziki-mənəvi sağlamlığı ilə yanaşı, ölkənin insan potensialının səmərəli realizəsi, cəmiyyətin yetkinləşməsi, milli genefondun qorunub saxlanılması baxımından son dərəcə vacibdir.

Azərbaycan gəncləri dövlətin onlara göstərdiyi yüksək diqqət və qayğı ilə qürur duyur, yaradılan şəraiti yüksək dəyərləndirir. Gənclərin vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində həyata keçirilən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait bunu bir daha sübut edir. Bu diqqət və qayğı ölkəmiz üçün strateji sahə olan təhsilə münasibətdə də özünü qabarıq göstərir. Dövlət başçısının müvafiq sərəncamı ilə təsdiqlənmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar yaratmışdır. Proqram çərçivəsində yüzlərlə azərbaycanlı gənc dünyanın ən nüfuzlu təhsil ocaqlarında təhsil alırlar.

Əmək fəaliyyətinə başladığım Bakı şəhəri 143 nömrəli tam orta məktəbdə gənclər hərtərəfli qayğı ilə əhatə olunublar. Bunun müqabilində gənc pedaqoji işçi kimi bütün qüvvəmi şagirdlərin təlim-tərbiyəsinə həsr edirəm. Günü-gündən çiçəklənən müstəqil Azərbaycanın sabaha böyük ümidlərlə addımlayan gəncləri olaraq yaşlı nəsildən öyrənir, təcrübəmizi artırır, şagirdlərin layiqli vətəndaş kimi formalaşmasına çalışırıq.

Təhsillə yanaşı, təlim-tərbiyə işlərinə də ciddi fikir veririk. Məktəblilərin sağlam ruhda böyümələri üçün narkomanlığın, alkoqolizm və siqaretin zərərlərini çatdırırıq. Şagirlərə özlərindən böyüklərə hörməti, ədəb-ərkan qaydalarını əxz edir, onlarla müdrik insanların kəlamları ətrafında söhbətlər aparırıq. Bu söhbətlərin müsbət nəticələri gənc pedaqoq kimi məni çox sevindirir.

Müdriklər buyurmuşdur ki, "Bilməmək eyib deyil, öyrənməmək eyibdir". Bu reallıqdan çıxış edərək çoxlu mütaliə edir, İKT-nin yeniliklərindən yararlanır, təcrübəli müəllimlərdən məsləhətlər alıram. Öyrəndiklərim mənə işimi planlı şəkildə quraraq həyata keçirməyə təkan verir, dünyagörüşümü, həyat təcrübəmi artırır.

Şagirdlərin hərtərəfli dünyagörüşünün formalaşdırılması, onların zəruri bilik və bacarıqlara yiyələnmələri, tarixi irsi dərindən öyrənmələri, sağlam ruhda yetişmələri üçün müxtəlif tədbirlər, ekskursiyalar, idman yarışları təşkil edirik. Dövlətimizin bizə yüksək qayğısının nəticəsidir ki, bu gün məktəbimizin yeni, müasir idman zalı var. Burada müxtəlif idman yarışları təşkil edir, yeniyetmələrin idmana olan marağını artırmağa çalışırıq.

Şagirdlərin asudə vaxtlarının səmərəli təşkili də diqqət mərkəzindədir. Bu məqsədlə Qala tarixi-etnoqrafik açıq muzeyinə, İncəsənət muzeyinə, Tarix muzeyinə, Üzeyir Hacıbəyovun ev muzeyinə, S.Vurğunun ev muzeyinə, Şirvanşahlar və Qız qalası etnoqrafik muzeylərinə, Xalçaçılıq muzeyinə, Qobustan tarixi qoruğuna, Çanaqqala tarixi abidəsinə, Bayraq meydanına və s. ekskursiyalar təşkil etmişik. Bundan başqa, Qarabağ müharibəsi iştirakçıları, məcburi köçkünlərlə görüş şagirdlərdə böyük təəssürat yaratmışdır.

Məktəbdəki dərnək və dərsdənkənar məşğələlər də şagirdlərin bilik və bacarıqlarının artırılmasına, İKT-dən sərbəst istifadə təcrübələrinin formalaşmasına imkan yaradır.

Uğurlarımızın ildən-ilə artması diqqət və qayğının nəticəsidir

Orxan Qasımov,
idmançı

Binəqədi gənclərinin hərtərəfli inkişafı, onların fiziki və mənəvi cəhətdən sağlam yetişməsi rayon icra hakimiyyətinin diqqətində olan mühüm məsələlərdəndir. Uğurlarımızın ildən-ilə artması da bu diqqət və qayğının nəticəsidir. Rayonda gənclər üçün hərtərəfli və əlverişli imkanlar yaradılıb. Bu da gənclərin asudə vaxtının səmərəli təşkili və onların öz üzərində çalışmalarına imkan verir. Gənclər rayon rəhbərliyi tərəfindən təşkil olunan ənənəvi tədbirlərdə mütəmadi iştirak edirlər.

Biz uğurlarımızla, qələbələrimizlə, biliyimizlə gələcəyimizin möhkəm təməlini qura bilərik. Yaradılan imkanlardan səmərəli istifadə etmək, dövlətimizə, xalqımıza faydalı vətəndaş olmaq borcumuzdur. Binəqədi rayonunun fəal gənclərindən biriyəm. Taekvondo üzrə yeniyetmələr, gənclər və böyüklər arasında keçirilmiş ölkədaxili və beynəlxalq yarışlarda mükafata layiq yerlər tutmuşam. Hazırda məşqçilik edirəm. Yaratdığımız "Fateh" idman klubu Biləcəri qəsəbəsində yerləşir. Orada 40-a yaxın yeniyetmə və gənc idmanın sirlərinə yiyələnir. İdmanla məşğul olanlar asudə vaxtlarını səmərəli keçirir, pis vərdişlərdən uzaq olurlar. Çalışacağıq ki, bundan sonra da idmanın inkişafı istiqamətində üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirək.

Vətənim üçün xeyirxah işlər görmək ən böyük arzumdur

Nərmin Bayramlı,
tələbə

On ildən çoxdur ki, Binəqədi rayonunda yaşayıram. 8-ci mikrorayonda yerləşən 135 saylı orta məktəbi əla qiymətlərlə bitirmişəm. Musiqi məktəbinin fortopiano bölməsində təhsil almışam.

Ötən il 682 balla Bakı Dövlət Universitetinin hüquq fakültəsinə qəbul olundum. Nəticəmə görə çox sevinirəm. Ulu Tanrıya şükür edirəm ki, arzum yerinə yetdi. Gələcəkdə Vətənim üçün xeyirxah işlər görmək istəyirəm. Ali təhsil aldıqdan sonra dövlətimizin müstəqilliyi, xalqımızın xoş gələcəyi uğrunda var qüvvəmi sərf edəcəyəm. Bunu vətəndaşlıq borcu hesab edirəm.

Rayon gənclərinə göstərdiyi diqqət və qayğıya görə Binəqədi Rayon İcra Hakimiyyətinin rəhbərliyinə minnətdarlığımı bildirirəm.

Gənc kadrlar irəli çəkilir



Nilufər Yusifova,
Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının gənc fəalı

Hər il fevralın 2-si respublikada "Gənclər günü" kimi qeyd olunur. Gənclik hər bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır. Bu təməlin möhkəmlənməsi isə yetişən nəslin sağlam təfəkküründən, düşünmə qabiliyyəti və əzmkarlığından asılıdır.

2 fevral tarixi ümummilli lider Heydər Əliyevin gənclərə hədiyyəsidir. Ulu öndər gəncliyi hər mənada güclü görmək istəyir, bunun üçün əlindən gələni edirdi. Məhz onun təşəbbüsü ilə 1996-cı il fevralın 2-də gənclərin ilk forumu keçirildi və həmin gün Azərbaycanın tarixinə "Gənclər günü" kimi yazıldı. Ümummilli lider müxtəlif forumlarda gənclərin fikrini öyrənir, onların problemlərinin həlli istiqamətində real addımlar atırdı.

Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Xüsusi vurğulamaq istərdik ki, Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun rayon gənclərinə diqqət və qayğısı bizi ürəkdən sevindirir və daha fəal olmağa həvəsləndirir. Həyata keçirmək istədiyimiz layihələrə, səmərəli təşəbbuslərimizə dəstək verilir. Binəqədi rayonunda gənc kadrların yüksək vəzifələrə irəli çəkilməsi də bu diqqət və qayğının təzahürü kimi təqdirəlayiqdir.

→ Məhəmməd Əmin Rəsulzadə – 130

Xalqımızın müstəqillik idealının banilərindən biri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə respublikamızda M.Ə.Rəsulzadənin yubiley tədbirləri həyata keçirilir.

Azərbaycan milli istiqlal hərəkatının və təkcə türk ellərində deyil, bütün islam aləmində ilk respublika üsul-idarəsi olan Azərbaycan Xalq Cümhuriyyətinin təməl daşını qoyan, sonralar ömür yolu, həyatı zəngin və keşməkeşli hadisələrlə dolu bir dastana çevrilən Məhəmməd Əmin Rəsulzadə 1884-cü il yanvarın 31-də Bakının Novxanı kəndində anadan olmuşdur. Atası din xadimi olsa da həyata açıq gözlə baxmış, məktəb yaşına çatmış oğlunu dünyəvi elmləri öyrənməyə yönəltmişdir. İlk təhsilini pedaqoq Sultan Məcid Qənizadənin (1846-1942) müdir olduğu ikinci Rus-müsəlman məktəbində alması gələcək mütəfəkkirin taleyində böyük rol oynamışdır. Buranı bitirdikdən sonra M.Ə.Rəsulzadə təhsilini Bakı texniki məktəbində, rus dilində davam etdirmişdir. Onun inqilabi fəaliyyətinin ilk illəri də məhz bu dövrə təsadüf edir. 1902-ci ildə on yeddi yaşında olan M.Ə.Rəsulzadə "Müsəlman gənclik təşkilatı"nı yaratmışdır. Bu, XX əsrdə Azərbaycanda rus müstəmləkə üsul-idarəsinə qarşı gizli mübarizə aparan ilk siyasi təşkilat idi.

M.Ə.Rəsulzadə ədəbi yaradıcılığa da bu illərdə başlamış, "Müxəmməs" adlı ilk əsəri "Şərqi rus" qəzetində çap olunmuşdur. 1904-cü ilin axırlarında "Müsəlman demokratik "Müsavat" cəmiyyəti"nin əsasında RSDFP-nin Bakı komitəsinin nəzdində "Müsəlman sosial-demokrat "Hümmət" təşkilatı" yaradılmışdır. Bu təşkilatın baniləri Mir Həsən Mövsümov (1882-1907), Məmməd Həsən Hacınski (1875-1931) və Məhəmməd Əmin Rəsulzadə olmuşlar. Məşədi Əzizbəyov, Nəriman Nərimanov, S.M.Əfəndiyev və başqa görkəmli inqilabçılar da 1905-ci ildən bu təşkilatın üzvü idilər. Təşkilatın "Hümmət" adlı qəzeti də nəşr edilmişdir. Qəzetin əsas nəşrlərindən biri də M.Ə.Rəsulzadə olmuşdur. Lakin hələlik onun bir nömrəsi də tapılmamışdır.

Sonradan qəzet öz nəşrini dayandırmış, 1906-cı ilin dekabrından "Təkamül" adı ilə nəşr olunmuşdur. Həmin illərdə Bakı neft mədənlərinə və Azərbaycanın qəzalarına ana dilində inqilabi qəzet və intibahnamələrin göndərilməsi bilavasitə M.Ə.Rəsulzadənin adı ilə bağlıdır. 1907-ci il sentyabrın 29-da inqilabçı fəhlə Xanlar Səfərəliyevin Bibi-Heybətdəki dəfn mərasimində keçirilən böyük yığıncaqda P.Caparidze, S.M.Əfəndiyev, İ.V.Stalin ilə birlikdə M.Ə.Rəsulzadə də alovlu nitq söyləmişdir. Onu da qeyd etmək lazımdır ki, M.Ə.Rəsulzadə əsrimizin əvvəllərindən başlayaraq 1907-ci ilin axırlarına qədər Bakıda inqilabi fəaliyyət göstərən Stalinlə çox səmimi və yaxın dost olmuşdur. Hələ 1905-ci ildə Balaxanı neft mədənlərində varlılar fəhlələri tətilə dəvət etdiyi üçün Stalini neft quyusuna atmaq istəmişlər. Özünü hadisə yerinə çatdıran M.Ə.Rəsulzadə onu ölümdən xilas etmişdir. O, Stalinin Bayıl həbsxanasından qaçırılmasının təşkilatçısı olmuşdur. 1954-cü ildə İstanbulda çıxan "Dünya" qəzeti M.Ə.Rəsulzadənin "Stalinlə ixtilal" adlı silsilə xatirə-məqaləsini çap etmişdir. O, həmin yazıda da bu barədə söhbət açır. M.Ə.Rəsulzadənin həmin dövrdə Əli bəy Hüseynzadənin (1864-1941) redaktor olduğu "Fyuzat", həmçinin Əhməd bəy Ağayevin (1869-1939) redaktorluğu ilə çıxan "İrşad" və "Tərəqqi" qəzetlərində müxtəlif mövzularda məqalələri və şeirləri çap olunmuşdur. Müəyyən müddət o, "İrşad" qəzetinin müvəqqəti redaktoru da olmuşdur. 1907-ci ildə çapdan çıxmış gələcəyin böyük bəstəkarı Üzeyir Hacıbəyovun (1885-1948) "Türk-rus və rus-türk lüğəti" kitabının naşiri M.Ə.Rəsulzadə olmuşdur. Yenə də həmin ildə o, A.Blyumun "Fəhlə sinfinə hansı azadlıq lazımdır (Xalq nümayəndəliyi haqqında)" kitabını Azərbaycan dilinə tərcümə edib "Təkamül" qəzeti redaksiyası adından Orucov qardaşlarının mətbəəsində çap etdirmişdir.



Həmin dövrlərdə bolşeviklərin Rusiya imperiyasının sərhədlərini saxlamaqla və yalnız sinfi ziddiyyətləri aradan qaldırmaq uğrunda mübarizə apardıqlarını hiss edən M.Ə.Rəsulzadə RSDFP-nin sıralarından uzaqlaşdı. O, rus müstəmləkə üsul-idarəsinə qarşı Azərbaycan milli istiqlal hərəkatının təməl daşını qurmağa başladı. 1908-ci il dekabrın 5-də Məhəmməd Əminin "Qaranlıqda işıqlar" pyesi tamaşaya qoyuldu. Pyesin ana xəttini milli oyanış və istiqlal hərəkatının təbliği təşkil edirdi. O, bu əsəri ilə "Azərbaycana muxtariyyət" şüarı fikrini yayır və rus çarizm üsul-idarəsi istibdadını yıxmağa çağırırdı. Bu pyes Azərbaycanda milli-istiqlal hərəkatı ilə tam bağlı olan ilk dram əsəridir. M.Ə.Rəsulzadənin həmin ildə yazdığı "Nagəhan bəla" adlı pyesi də azadlıq və müstəqilliyə həsr olunmuşdur.

Məhəmməd Əmin 1955-ci il martın 6-da gecə saat on birə on dəqiqə qalmış "Azərbaycan… Azərbaycan… Azərbaycan…" – deyərək əbədiyyətə qovuşmuşdur.

Xalqımız müstəqilliyə qovuşandan sonra öz mütəfəkkir oğlunun adını əbədiləşdirmişdir. Bu gün ölkəmizdə Məhəmməd Əmin Rəsulzadənin adını daşıyan mədəniyyət ocaqları, sosial obyektlər, parklar, küçələr vardır. Təsadüfi deyildir ki, Binəqədi rayonunun ən böyük qəsəbəsinə M.Ə.Rəsulzadənin adı verilmişdir.

→ idman

Məktəblilər arasında voleybol turniri

MAİL

Binəqədi Rayon Gənclər və İdman İdarəsinin (Gİİ) təşkilatçılığı ilə yanvarın 22-dən 28-ə kimi orta ümumtəhsil müəssisələrinin oğlanlardan ibarət komandaları arasında idmanın voleybol növü üzrə birincilik keçirilib. 248 saylı orta məktəbin idman meydançasında baş tutan turnir "Gənclər günü"nə həsr olunub. Yarışlarda hər birində 12 nəfər olmaqla 20 komanda iştirak edib. Oyunların nəticələrinə görə 314 saylı tam orta məktəb I, 3 saylı tam orta məktəb II, 284 saylı tam orta məktəb isə III yerə layiq görülüb. Qaliblər Binəqədi rayon Gİİ tərəfindən mükafatlandırılıblar.

Yubileyə həsr olunmuş sərgi

Yanvarın 28-də Azərbaycan İstiqlal Muzeyində Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən olan Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinə həsr edilmiş "Tarixin bir səhifəsi" mövzusunda tədbir-sərgi keçirilmişdir.

Muzeyin direktoru Fəridə Şəmsi tədbirin Prezident İlham Əliyevin "Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında" 2013-cü il 22 noyabr tarixli sərəncamına əsasən təşkil edildiyini söyləmişdir. Bildirmişdir ki, tədbir-sərgidə tarixçi Ədalət Tahirzadənin şəxsi arxivindən 30 ədəd fotoşəkil, muzeyin fondunda saxlanılan kitablar, sənədlər nümayiş olunur. Direktor qeyd etmişdir ki, Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti millətimizə müstəqilliyin nə demək olduğunu göstərmişdir.

Sonra M.Ə.Rəsulzadəyə həsr edilmiş videoçarx nümayiş olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tarix kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Firdovsiyə Əhmədova, tarixçi Ədalət Tahirzadə və başqaları görkəmli siyasi xadim M.Ə.Rəsulzadə haqqında məruzələrlə çıxış etmişlər.

Məhəmməd Əmin Rəsulzadənin nəvəsi, rəssam Rəis Rəsulzadə tədbirin iştirakçılarına və görkəmli ictimai-siyasi xadimin tədqiqatçılarına minnətdarlığını bildirmişdir. Nəzərə çatdırmışdır ki, Azərbaycanda M.Ə.Rəsulzadənin yubileyinin dövlət səviyyəsində keçirilməsi ilə yanaşı, Rusiya, Türkiyə və digər ölkələrdə də qeyd ediləcəkdir.

Sərgi fevralın 10-dək davam edəcəkdir.

Sakinlərin işlə təminatı diqqət mərkəzindədir

M.ORUCOV

Ölkədə həyata keçirilən məşğulluq strategiyasının Binəqədi rayonunda da uğurlu icrası əhalinin yeni iş yerləri ilə təminatına, ümumilikdə məşğulluq səviyyəsinin yüksəlməsinə imkan yaradıb.

2013-cü ildə Binəqədi Rayon Məşğulluq Mərkəzinə 1826 nəfər vətəndaş müraciət edib və onların 1229-u işaxtaran kimi qeydiyyata alınıb. Müraciət edənlərdən 443 nəfəri qadın, 68-i qaçqın və məcburi köçkünlərdir. Mərkəzin direktoru Məhəmməd Hacıyevin qəzetimizə verdiyi məlumata görə, işaxtaranlardan 91 nəfəri sərbəstləşmə (ixtisar) ilə əlaqədar işini itirənlər, 441-i kadr axıcılığı səbəbindən işdən azad olunanlar, 252 nəfəri ali, 166-sı orta-ixtisas, 2344-ü tam orta məktəblərin məzunları, 223-ü peşə məktəbini bitirənlər, 234-ü orta təhsili olanlar (təhsili olmayanlar və ibtidai təhsili olanlar da daxil olmaqla), 56 nəfəri hərbi xidmətdən qayıdanlar, 593-ü ilk dəfə işaxtaranlar olublar. İşaxtaranların 614 nəfərini 29 yaşadək gənclər təşkil edib.

Hesabat dövründə 632 işaxtaran vətəndaş müxtəlif sahələrdə daimi işlə təmin olunublar. Onlardan 187-si qadınlar, 19-u sərbəstləşmə ilə əlaqədar işini itirənlər, 329-u kadr axıcılığı nəticəsində işdən azad olunanlar, 3-ü cəzaçəkmə yerindən azad edilənlər, 19-u hərbi xidmətdən tərxis olunanlardır. İşə qəbul edilənlər arasında 105 nəfər ali təhsillidir. 120 nəfər orta-ixtisas məktəblərinin, 70 nəfər ilk peşə məktəblərinin, 203 vətəndaş tam orta məktəblərin məzunlarıdır. İşlə təmin olunan 32 nəfər qaçqın və məcburi köçkünlər, 353 nəfər isə ilk dəfə iş axtaranlardır.

İl ərzində işsizlik müavinəti başa çatmış 13 nəfər, o cümlədən müavinət aldığı müddətdə 3 vətəndaş Mərkəzin göndərişi əsasında müvafiq işlə təmin olunub. Ötən il 48 nəfər kvota üzrə ayrı-ayrı müəssisələrdə müxtəlif peşə və ixtisaslar üzrə işə qəbul edilib. Onlardan 13 nəfər əlil, 35 vətəndaş isə qaçqın və məcburi köçkündür.

İşaxtaranların müvafiq kurslara cəlb edilməsi istiqamətində də tədbirlər görülüb. 108 işaxtaran vətəndaş müxtəlif peşə kurslarına cəlb edilib: 16 nəfər kompüter texnikasının təmiri ustası, 16 nəfər kompüter mühasibliyi, 12 nəfər bərbər-manikürçü, 12 nəfər toxucu, 12 nəfər video-operator, 12 nəfər dərzi, 16 nəfər kompüter üzrə texnik, 12 nəfər isə qənnadçı peşəsinə yiyələnib. Ümumilikdə, peşə kurslarını bitirən 62 vətəndaş müvafiq işlə təmin olunub.

2013-cü ildə rayonun orta ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdləri arasından 1731 nəfər peşəyönümü məsləhətinə cəlb edilib. 127 nəfərə işsizlik statusu verilib, 129 nəfərə işsizlik müavinəti təyin olunub. İşsizlik statusu verilənlərdən 26 nəfəri ixtisara düşənlər, 86-sı kadr axıcılığı səbəbindən işdən çıxanlar, 13-ü isə ordudan tərxis edilənlərdir. Bu kateqoriyadan olan vətəndaşların 41-ni qadınlar təşkil edir.

Hesabat ilində rayonda 662 müəssisə faktiki fəaliyyət göstərib. Onlardan 104-ü dövlət, 558-i qeyri-dövlət müəssisələri olub. 528 müəssisə və təşkilat işə qəbul edilən və işdən çıxarılanlar barədə 2 nömrəli forma üzrə hesabat təqdim edib. İl ərzində orta hesabla 241 müəssisə, təşkilat və fiziki şəxslərdən 1233 boş iş yerləri haqqında məlumat mərkəzə təqdim olunub.

2013-cü ildə mərkəzdə 45 müəssisə və təşkilatın nümayəndələrinin iştirakı ilə "İxtisaslaşmış əmək yarmarkaları" və "Karyerada ilk addım" devizi ilə tədbirlər keçirilib. Bu tədbirlərdə vətəndaşların işlə təmin olunmasında işəgötürənlərin rolu, boş iş yerləri haqqında məlumatların mütəmadi şəkildə Məşğulluq Mərkəzinə təqdim olunması zərurəti ilə bağlı fikir mübadiləsi aparılıb.

Hesabat ili ərzində Məşğulluq Mərkəzinin inzibati binasında ayda bir dəfə əmək yarmarkası təşkil olunub. Yarmarkalara rayon ərazisində fəaliyyət göstərən 47 müəssisə və təşkilatın nümayəndələrinin iştirakı ilə müxtəlif ixtisas və peşələr üzrə 370 boş (vakant) iş yerləri çıxarılıb. Müraciət etmiş işaxtaran 203 vətəndaşa göndəriş verilib, 120 şəxs daimi işlə təmin olunub, 31 nəfər isə peşə kurslarına cəlb edilib.

→ beynəlxalq şərh

İraqda nələr baş verir...

Həsən Bayramoğlu
politoloq

Yaxın Şərqin qədim və aparıcı dövlətlərindən olan İraq ABŞ-ın müdaxiləsi ilə Səddam Hüseyn rejiminin devrilməsindən sonra yeni siyasi-tarixi transformasiya mərhələsini ağrılı və ziddiyyətlərlə dolu bir formada keçməkdədir.

Ölkədə çoxpartiyalı sistemə keçid formal xarakter daşıyır. Əsas səbəblərdən biri dini dəyərlərə üstünlük verən ictimai-siyasi mühitdə sağ və sol mərkəzçi siyasi partiyaların formalaşa bilməməsidir. Əsirət və regional tayfa birləşmələrinin dini-ehkamçı baxışları bu sahədə başlıca maneədir.

İraq bir tərəfdən daxili siyasi-iqtisadi vəziyyətini düzəltməyə çalışır, digər tərəfdən qonşu dövlətlərdə baş verən hadisələrin və yaxud həyata keçirilən siyasətin ona mümkün mənfi nəticələrindən qorunur, nəhayət, ölkədə meydan sulayan daxili etnik və dini separatizmi neytrallaşdırmaq istəyir.

Bəs qonşularla münasibətlərin ölkədə baş verən hadisələrə mümkün təsiri haqqında nə demək olar?

Birincisi, İran Səddam Hüseyn rejimindən sonra bu ölkə ilə tarixi-dini əlaqələrini gücləndirməkdədir. Nəzərə alsaq ki, İran bu gün dünyada şiəliyin əsas hamisi kimi çıxış edir, İraqda da həm şiələr yetərincə söz sahibidir, həm də başlıca şiə-dini mərkəzlərindən olan Nəcəf və Kərbəla burada yerləşir. Baş nazir Malikinin simasında mövcud hökümətin şiəçi tendensiyalara daha çox üstünlük verməsi də sünni çoxluğun ənənəvi narazılığını gücləndirməkdədir.

İkincisi, tarixən bir-biri ilə sıx bağlı olduğu Türkiyənin İraqda yaşayan türkmənlərin bu ölkədəki siyasi vəziyyətdən az zərərlə çıxması üçün kəskin mövqe bildirməsi, digər tərəfdən yaranmış tarixi şəraitdən istifadə edərək məhəlli muxtariyyətini elan etmiş İraq Kürdüstanı ilə münasibətlərinə üstünlük verməsi, xüsusilə bu ərazilərdəki neftin Türkiyə üzərindən Ceyhan limanına daşınması ilə bağlı son günlər əldə edilmiş razılaşmalar İraqda birmənalı qarşılanmır. Nəhayət, bu ölkənin vitse-prezidenti olmuş Hasimiyə öz ölkəsində sığınacaq verməklə İraqdakı sünnilərin hüquqlarının qorunmasına xüsusi diqqət yetirməsi iki ölkə arasındakı gərginliyi artırmışdır.

Üçüncüsü, qonşuları ilə münasibətlərdə İraqın daxili vəziyyətinə güclü təsirləri olan Suriyadır. Bu ölkədə baş verənlərin İraqa təsirini zərərsizləşdirməkdə hökumət ciddi çətinlik çəkir. Bəşər Əsəd rejiminin və onun simasında Suriyanın tarixi taleyində yeni epoxanın qaçılmaz olduğu bir vaxtda İraqın Suriya ilə həmsərhəd ərazilərində yaşayan sünni çoxluğun narahatlığının son günlər artması azmış kimi, "İraq-Şam İslam Dövləti" adlı yeni yaradılmış Suriya müxalifətinin də fəallaşması İraqda daxili gərginliyi artırmışdır. Beynəlxalq analitiklərin fikirincə, bu müxalif qüvvə birbaşa İraq və İran hakim dairələri tərəfindən dəstəklənir və Suriyada Əsəddən sonrakı vəziyyətə hesablanmışdır. Hətta Malikinin qarşıdakı seçkilərlə bağlı ölkəsində sünni çoxluğun yaşadığı ərazilərdə qarşıdurmanı bilərəkdən artırması onların daxili gərginlikdə saxlanması kimi də qiymətləndirilir. Sözün həqiqi mənasında, ölkədəki sünni icmaları iqtidardan bezmişlər.

Beləliklə, İraq yeni quruculuq dövrünü həm daxili, həm də regional gərginliklər zəminində çox çətin keçsə də, birbaşa ABŞ-ın dəstəyi sayəsində dövlət statusunu hər cür separatçı tendensiyalardan qorumaqdadır.

Ölkədə dünyəvi, liberal və dini-klerikal baxışların kəskin qarşıdurma həddində qalması, açıq görünməsə də İranın movcud iqtidarı məzhəbi mövqedən dəstəkləməsi təxribat xarakterli daxili müdaxilə kimi dəyərləndirilməklə İraqda böhranlar mərhələsinin ömrünü uzatmaqdadır.

Müsəlman ölkələrində mövcud rejimlərin əvəzlənməsi yolu ilə növbəti siyasi mərhələyə daşınması ənənəvi olaraq əvvəlkindən daha pis nəticələrə gətirib çıxarır. İslam dininin siyasi proseslərdə ifrat alətə çevrilməsi, ehkamçı dünyagörüş mərhələsini aşa bilməməsi hansısa sehrli əlin sayəsində mümkün olur. Deyəsən, belə ssenari Türkiyəyə də şamil edilməkdədir. Allah saxlasın!

sərbəst

→ iqtisadiyyat

Əsas kapitala yönəldilmiş vəsaitin həcmi yüksəlib

Ötən il Azərbaycanda iqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 17,9 milyard manat həcmində vəsait yönəldilmiş, 11,9 milyard manatlıq tikinti-quraşdırma işləri görülmüşdür.

Dövlət Statistika Komitəsindən bildirmişlər ki, 2012-ci illə müqayisədə əsas kapitala yönəldilmiş vəsaitin məbləği 15,1 faiz, o cümlədən tikinti-quraşdırma işlərinin aparılmasına sərf edilmiş vəsait 25 faiz artmışdır.

Məhsul istehsalı obyektlərinin inşasına investisiyanın 48,3 faizi, yaxud 8,6 milyard manat sərf olunmuşdur. Həmin vəsaitin 76,7 faizini və ya 13,7 milyard manatını daxili investisiyalar təşkil etmişdir.

Elektrik enerjisinin istehsalı çoxalıb

Dövlət Statistika Komitəsindən bildirmişlər ki, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsinin müəssisələri tərəfindən ötən il Azərbaycanda 1,8 milyard manatlıq məhsul istehsal olunmuş və xidmətlər göstərilmişdir. 2012-ci illə müqayisədə bu sahədə 3,2 faizlik artım əldə olunmuşdur.

Keçən il ölkədə 20,6 milyard kilovat-saat elektrik enerjisi istehsal olunmuş, onun 6,6 faizi su elektrik stansiyalarının, 93,4 faizi istilik elektrik stansiyalarının payına düşmüşdür.

Hazır məhsul ehtiyatı artıb

Ötən ilin yanvar-dekabr ayları ərzində tikinti materialları sənayesi müəssisələri tərəfindən istehsal edilmiş məhsulun həcmi 21 faiz artaraq 345,4 milyon manat təşkil etmişdir.

Dövlət Statistika Komitəsindən bildirmişlər ki, həmin müddətdə sement istehsalı 3,8 faiz artaraq 2 milyon ton, gips istehsalı 14,3 faiz artaraq 170,4 min ton, hazır beton qarışığı istehsalı 12,2 faiz artaraq 1 milyon 373,4 min ton olmuşdur.

Cari il yanvarın 1-nə müəssisələrin anbarlarında 17,4 milyon manatlıq hazır məhsul ehtiyatı olmuşdur.

Qeyri-neft sektorunda yüksəliş müşahidə olunub

2013-cü ildə ölkədə istehsal olunmuş ümumi daxili məhsulun (ÜDM) həcmi əvvəlki ilə nisbətən 5,8 faiz artaraq 57,7 milyard manata çatmışdır. ÜDM-in adambaşına düşən həcmi 6207,3 manat (7912,5 dollar) təşkil etmiş və 4,4 faiz artmışdır.

Dövlət Statistika Komitəsindən bildirmişlər ki, bu dövrdə cari qiymətlərlə 84,8 milyard manatlıq məhsul və xidmətlər istehsal olunmuş, məhsul istehsalına sərf edilmiş mal və xidmətlərin dəyəri 27,1 milyard manat olmuş yaxud məhsul və xidmətlər buraxılışının 32 faizini təşkil etmişdir.

2013-cü ildə iqtisadiyyatın qeyri-neft sektorunda əlavə dəyərin 10 faiz artımı qeydə alınmış, onun ÜDM-də xüsusi çəkisi əvvəlki ildəki 53,5 faizdən 56,6 faizədək yüksəlmişdir. Ümumi daxili məhsulun 43,4 faizi neft-qaz istehsalı və emalı sahələrinin payına düşmüşdür.

2013-cü ildə sənayedə 26,7 milyard manatlıq, yaxud ümumi daxili məhsulun 46,3 faizi qədər, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 3,1 milyard manatlıq (5,3 faiz), tikintidə 6,8 milyard manatlıq (11,8 faiz), nəqliyyat və anbar təsərrüfatında 2,8 milyard manatlıq (4,8 faiz), informasiya və rabitə xidmətlərində 1 milyard manatlıq (1,8 faiz) həmçinin, ticarət və nəqliyyat vasitələrinin təmiri üzrə xidmətlər sahəsində 4,1 milyard manatlıq (7,1 faiz), turistlərin yerləşdirilməsi və ictimai iaşə xidmətləri sahəsində 1,1 milyard manatlıq (1,8 faiz), sosial və digər xidmətlər sahəsində isə 8,5 milyard manatlıq (14,7 faiz) əlavə dəyər yaradılmışdır.

Məhsula və idxala xalis vergilər ÜDM-in 6,4 faizini təşkil etmişdir.

Binəqədi Rayon İcra Hakimiyyətinin

Sakinlərin Müraciət Xidməti

Sizin zənginiz bizim üçün çox əhəmiyyətlidir!

www.binegedi-ih.gov.az

→ xarici xəbərlər

Miqrantların aclıq aksiyası

İtaliyanın bir neçə müvəqqəti saxlama mərkəzində miqrantlar aclıq aksiyası elan ediblər. Aksiyada Şimali Afrikadan olan miqrantlar iştirak edib. Bu yolla onlar sığınacaq mərkəzlərindəki ağır saxlanma şəraitinə etirazlarını ifadə ediblər. Qeyd edək ki, 2013-cü ildə İtaliyada miqrantların sayı ötən illə müqayisədə 3 dəfə artıb.

Yüzlərlə nümayişçi həbs olunub

Parisdə Fransa prezidenti Fransua Ollanda qarşı etiraz nümayişi qarşıdurmaya çevrilib. "France-Presse"in həmkarlar təşkilatlarına istinadən yaydığı xəbərə görə, aksiyada 160 min nəfər iştirak edib. Aksiya iştirakçıları bir çox problemə, əsasən də ekologiya vergisinə qaşı etiraz ediblər. Nümayişdə "Fransa qəzəblənib" kimi şüarlar səsləndirilib. Etirazçılar polisə şüşə qablar, "Molotov" kokteylləri və tüstü bombaları atıb, zibil qablarına od vurublar. Asayiş keşikçiləri cavab olaraq gözyaşardıcı qaz və su şırnağından istifadə ediblər. Toqquşmalarda 19 polis əməkdaşı xəsarət alıb, azı 250 etirazçı həbs edilib.

Yaponiyanın ticarət kəsiri kəskin şəkildə artıb

2013-cü ildə Yaponiyanın ticarət kəsiri 90 milyard dollara çatıb. "Figaro" saytının xəbərinə görə, bu fərq iyenin ucuzlaşması və enerjinin bahalaşması nəticəsində ortaya çıxıb. Ötən il ölkədə 2 nüvə reaktorunun bağlanması elektrik enerjisinin maya dəyərini artırıb.

Edvard Snouden ABŞ kəşfiyyatını sənaye casusluğunda ittiham edib

ABŞ Milli Təhlükəsizlik Agentliyinin sabiq əməkdaşı Edvard Snouden Almaniyanın ARD televiziyasına müsahibəsində bildirib ki, ABŞ xüsusi xidmət orqanları təkcə Angela Merkelin telefonunu dinləməklə kifayətlənməyib. O, Almaniya kansleri ilə yanaşı, yüksək vəzifəli məmurların və nazirlərin də izləndiyini istisna etməyib. Snouden Almaniya federal kəşfiyyat xidmətinin ABŞ Milli Təhlükəsizlik Agentliyi ilə sıx əməkdaşlıq etməsi iddiasını irəli sürüb. O, həmçinin, ABŞ kəşfiyyatını sənaye casusluğunda ittiham edib. Snoudenə görə, nüfuzlu şirkətlər ABŞ xüsusi xidmət orqanları tərəfindən mütəmadi şəkildə izlənilir.

Misirdə qarşıdurmalar səngimək bilmir

Misirin bir neçə şəhərində hərbi çevriliş əleyhdarları növbəti dəfə kütləvi etiraz aksiyaları keçiriblər. Legitimliyə Dəstək Milli Alyansının təşkilatçılığı ilə baş tutan aksiyalar zamanı etirazçılarla təhlükəsizlik qüvvələri arasında qarşıdurmalar qeydə alınıb. Asayiş keşikçilərinə daş və "Molotov" kokteyli atılıb. Öz növbəsində polis aksiyaçılara qarşı gözyaşardıcı qaz və odlu silahdan istifadə edib. Nəticədə 14 nəfər ölüb, 100-ə yaxın şəxs yaralanıb. Eyni zamanda təxribat törətməkdə şübhəli bilinən 237 nəfər həbs olunub.

→ mədəniyyət

Azərbaycanlı və türk ifaçıların birgə konserti

Rumıniya Türk Qadın İş Adamları dərnəyinin təşkilatçılığı ilə yanvarın 27-də Buxarest şəhərində fəaliyyət göstərən "Lumina" Universitetində azərbaycanlı və türk piano ifaçılarının konserti keçirilmişdir.

Tədbirdə Azərbaycanın və Türkiyənin Rumıniyadakı səfirliklərinin əməkdaşları, türk-tatar diasporunun nümayəndələri, bu ölkədə yaşayan və təhsil alan azərbaycanlılar iştirak etmişlər.

Türk Qadın İş Adamları dərnəyinin sədri Birgül Şenyuva mərasimi açaraq tədbirdə iştirak etmək üçün dəvəti qəbul etdiyinə görə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının prorektoru, Azərbaycanın xalq artisti Yeganə Axundovaya və həmin akademiyanın doktorantı Dərya Ağçaya minnətdarlığını bildirmişdir. O, belə tədbirlərin xarici ölkələrdə Azərbaycan və türk mədəniyyətlərinin tanıdılması baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulamışdır.

Musiqi gecəsində Azərbaycan və türk bəstəkarlarının repertuarlarından ifalar və xalq musiqiləri səslənmişdir.

"Sufizm" kitabı çapdan çıxmışdır

Tanınmış füzulişünas alim, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin prorektoru, filologiya üzrə elmlər doktoru, professor Gülşən Əliyeva-Kəngərlinin "Sufizm" adlı kitabı çapdan çıxmışdır.

Universitetdən bildirmişlər ki, Azərbaycan və ingilis dillərində "Aspoliqraf LTD" nəşriyyatında çap olunmuş kitabda zaman-zaman bütün bəşəriyyəti düşündürən aktual problemlərdən biri kimi, mənşəyində islam amili dayanan bu fəlsəfi təlimə əsasən məxluqun Xaliqə qovuşmaq arzusunu mistik məhəbbət yolu ilə reallaşdırmasından söhbət açılır.

Müəllif illərlə apardığı elmi araşdırmaların nəticəsi olan bu tədqiqat əsərində ona bədii-fəlsəfi cərəyan kimi baxır, sufizmin təşəkkülündə və yayılmasında bədii ədəbiyyatın rolunu aşkara çıxarmağa çalışır, bu cərəyanın mənşəyi və mahiyyətini, türk sufizmini, Azərbaycan ədəbiyyatında sufizm problemlərini geniş təhlil edir.

Malayziyada Azərbaycanın Mətbəx Mədəniyyəti Günü

Yanvarın 20-dən 26-dək Malayziyanın Saravak ştatının Miri şəhərində UNESCO-nun Dünya Xalq Yaradıcılıq Təşkilatının və Malayziyanın "Curtin" Universitetinin birgə təşkilatçılığı ilə "Asiyanın dadı – mədəniyyətə səyahət, mədəni anlaşma yolu ilə Asiyada sülh" mövzusunda Birinci Asiya Gənclər Konqresi keçirilmişdir.

Konqresdə Azərbaycan Milli Kulinariya Mərkəzinin direktoru, UNESCO-nun Ənənəvi Qida Komitəsinin sədri Tahir Əmiraslanovun başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti də iştirak etmişdir.

Konqresin plenar sessiyasında Tahir Əmiraslanov milli mətbəximiz mövzusunda məruzə ilə çıxış etmiş, xalq yaradıcılığı üzrə mütəxəssis Minarə Quliyeva isə milli aşpaz geyimlərimiz ilə bağlı diskussiyaya qatılmışdır.

Konqresdə Azərbaycanın Mətbəx Mədəniyyəti Günü də keçirilmişdir.

Mərasimin açılışında çıxış edən Azərbaycanın Malayziyadakı səfiri Qaley Allahverdiyev xalqımızın zəngin mədəniyyəti, dünyaya mədəniyyətlərarası dialoq və tolerantlıq sahəsində verdiyi töhfələr, ölkəmizdə əsrlər boyu müxtəlif milli və dini mənsubiyyətə malik insanların qarşılıqlı hörmət və sülh şəraitində yaşaması haqqında danışmışdır. Prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın ölkəmizin qədim və zəngin mədəniyyətinin qorunması, dünyada sülhə, qarşılıqlı anlaşmaya nail olmaq üçün mədəniyyətlərarası dialoqun intensivləşdirilməsi istiqamətində həyata keçirdikləri məqsədyönlü fəaliyyət barədə iştirakçılara məlumat verilmişdir.

ELAN

"BİNƏQƏDİ" QƏZETİNƏ 2014-cü İL ÜÇÜN ABUNƏ KAMPANİYASI DAVAM EDİR

Azərbaycanın bütün şəhər və rayonlarında "Binəqədi" qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) 20 manat 80 qəpik təşkil edir. Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN:1002874841; H/h:AZ42ATAZ01200150450000140060; "Atabank"ASC
VÖEN:9900006651; M/h:AZ50NABZ01350100000000032944; SWIFT ATAZAZ22